

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## 12 il: həyatımızı asanlaşdıran "ASAN"



3

# Vladimir Putin Prezident İlham Əliyevə zəng edib



2


# SƏS

№ 242 (7167)

29 dekabr 2024-cü il.
Qiymıəti 60 qəpik


## 2025-ci il - "Konstitusiya və Suverenlik İli"




9

# Dünyadakı nəzarətsiz silahlar



6

## Qarabağda ekosistem: yenə, yenidən



15

## Yeni il kimin bayramıdır?



8

## Xaricdə təhsil kvotası açıqlandı



16

## Yeni il süfrəsində təhlükə saçan qidalar BƏLLİ OLDU



12

# Bakıda abadlaşdırma işləri uğurla aparılır



## Prezident İlham Əliyev Bakıda kommunal xidmət göstərəcək müxtəlif xüsusi təyinatlı nəqliyyat vasitələri ilə tanış olub



***Dekabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda kommunal xidmət göstərəcək müxtəlif xüsusi təyinatlı nəqliyyat vasitələri ilə tanış olub. AZƏRTAC xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlətimizin başçısına nəqliyyat vasitələrinin texniki göstəriciləri və imkanları barədə məlumat verib.***

Bildirilib ki, burada "IVECO" və "Dongfeng" şirkətlərinin istehsalı olan müxtəlif kommunal işlər üçün nəzərdə tutulan nəqliyyat vasitələri və texnikalar var. Nəqliyyat vasitələrinin əksəriyyəti tam elektrikli olmaqla, ekoloji cəhətdən ətraf mühitə ziyan vurmadan çalışır.

Qeyd edək ki, Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində Azərbaycanın hər bir bölgəsində, o cümlədən Bakıda ardıcıl olaraq yenidənqurma və abadlaşdırma işləri aparılır, digər şəhərlərimizdə olduğu kimi, paytaxtda da ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılır. Bütün bunlar həm şəhər sakinləri, həm də paytaxtımızın qonaqları tərəfindən böyük məmnunluqla qarşılanır. Təsadüfi deyil ki, Bakıya gələn turistlər paytaxtımızın dünyanın ən təmiz və gözəl şəhərlərindən biri olduğunu qeyd edirlər.





# Vladimir Putin Prezident İlham Əliyevə zəng edib

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin dekabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Telefon danışığı əsnasında Vladimir Putin dekabrın 25-də Bakı-Qroznı marşrutu üzrə uçuş yerinə yetirən "Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Rusiyanın hava məkanında fiziki-texniki xarakterli kənar müdaxiləyə məruz qalması və nəticədə baş vermiş faciəvi hadisə ilə bağlı üzrxahlığını ifadə edib, bu qəzada həlak olanların ailələrinə və yaxınlarına dərin və ən səmimi başsağlığını bir daha çatdırıb, xəsarət alanların tezliklə şəfa tapmasını diləndiyini deyib.

Prezident İlham Əliyev "Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Rusiyanın hava məkanında olan zaman kənar fiziki-texniki müdaxiləyə məruz qaldığını və idarəetməsini tam itirdiyini, Qazaxıstanın Aktau şəhərinə doğru yönləndirildiyini, yalnız pilotların şücaəti və peşəkarlığı sayəsində qəza enişi edə bildiyini qeyd edib. Dövlətimizin başçısı təyyarənin gövdəsində çoxsaylı dəliklərin olmasının, hələ havada olarkən sərnişinlərin və heyət üzvlərinin təyyarənin göyərtəsini dəlib içəri daxil olan yad hissəciklərlə yaralanmalarının, bu xüsusda, sağ qalan təyyarə bələdçilərinin və sərnişinlərin ifadələrinin kənar fiziki-texniki müdaxilə faktını təsbit etdiyini vurğulayıb.

Söhbət zamanı dövlət başçıları bu faciənin bütün təfərrüatlarının ciddi və hərtərəfli araşdırılması, günahkarların məsuliyyətə cəlb olunmasını müzakirə ediblər. Prezident İlham Əliyev bildirib ki, Azərbaycan tərəfinin təklifi ilə bu qəzanın səbəblərinin hərtərəfli araşdırılması üçün beynəlxalq ekspertlərdən ibarət heyət təşkil edilib və bu heyət artıq fəaliyyətə başlayıb. Dövlət başçıları, həmçinin faciə ilə əlaqədar başlanılmış istintaq prosesinin tam şəffaf şəkildə aparılacağını və mütəmadi qaydada ictimaiyyətə məlumat veriləcəyini vurğulayıblar.

# Fransa portalı azərbaycanlı pilotlardan yazdı - "həqiqi möcüzə göstərdilər"




"Azərbaycan Hava Yolları"na (AZAL) məxsus təyyarənin pilotları hava gəmisini təhlükəsiz endirmək üçün mümkün olan sona qədər mübarizə aparıblar. Bu fikir Fransanın "La Voix du Nord" portalındakı xəbərdə yer alır. Xəbərin müəllifləri azərbaycanlı pilotların yüksək peşəkarlıq nümayiş etdirdiklərini bildirirlər.

Məqalədə qeyd olunur ki, AZAL-ın 8432 saylı reysinin uçuş heyəti həqiqi möcüzə göstərərək hava gəmisindəki sərnişinlərin yarısının həyatını xilas edə biliblər. Hdiravlik və naviqasiya sistemlərinin sıradan çıxmasına rəğmən, onlar 2 saat ərzində Xəzər dənizindən keçərək təyyarəni Aktauya çatdıra biliblər. Qəzada həyatlarını itirən gəmi komandiri İqor Kşnyakin, pilot Aleksandr Kalyaninov və stüardessa Hökümə Əliyevanın fədakarlıqları sayəsində faciənin miqyasını kiçiltmək mümkün olub.



Accueil > Actualités > International

**« Les pilotes se sont battus jusqu'au bout » : l'incroyable trajectoire de l'avion d'Azerbaïdjan Airlines avant le crash**

Les pilotes de l'avion d'Azerbaïdjan Airlines qui s'est écrasé mercredi matin au Kazakhstan ont tout tenté pour poser leur appareil en sécurité, comme le montre une reconstitution de leur trajectoire par le site FlightRadar24.

# 12 il: həyatımızı asanlaşdıran “ASAN”





***Gündəlik həyatımızda elə vacib bir sahələr var ki, bütün yaş qruplarından olan insanların o sahəyə müraciəti anbaandır. Hansı ki, o sahədə illərlə süründürməçiliklə üzləşməli, bir saata düzələn iş üçün həftələrlə hər hansı dövlət orqanına ayaq döyməli olmuşuq. Əsəblərimiz gərilib, planlarımız pozulub, bəzi dövlət qurumlarına inamımız itib, ümidimiz kəsilib. Söylədiklərimizi təsdiq edəcək çox sayda insan var ki, hər hansı bir sənədin alınması, xidmətin həyata keçirilməsi üçün bunları dəfələrlə yaşayıb. O zamana qədər ki, həyatımıza “ASAN xidmət” daxil oldu. Və budur, artıq biz onunla 12 ildir ki, asan bir həyat yaşayırıq...***

### “ASAN xidmət”: son 21 ilin reallıqlarından biri

Bu, bir faktdır ki, son 21 il müstəqil Azərbaycanın tarixində şanlı bir səhifə açıb. Bu şanlı səhifələrə çox ilklər həkk olunub. Bunlardan biri də “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 13 iyul 2012-ci tarixli Fərmanı ilə yaradılan “ASAN xidmət” mərkəzləridir. O “ASAN xidmət” mərkəzləri ki, dövlətimizin başçısının uğurlu layihəsidir, artıq 12 ildir fəaliyyət göstərir və insanlar bu xidmətdən çox razıdır. Bu xidmətin yaradılmasının əsasında insan amili dayanır. “ASAN xidmət” ölkəmizdə vətəndaşlara verilən dəyərin bariz nümunəsi, inkişafın göstəricisi, insanların həyatına rahatlıq töhfəsidir. “ASAN xidmət” həyatımızın asanlaşdırılması, bir mərkəzdə birləşən xidmətlərlə həm vaxt, həm də artıq vəsait itkisinin qarşısının alınmasıdır.

Bakıda pilot layihə olaraq ilk “ASAN xidmət” mərkəzinin açılışı 29 dekabr 2012-ci ildə olmuşdur. Mərkəz doqquz dövlət orqanının təklif etdiyi 23 xidməti həyata keçirməklə, 15 yanvar tarixində fəaliyyətə başlamışdır. Yaradılmasından ötən bir il ərzində Sumqayıtda, Gəncədə də “ASAN xidmət” mərkəzləri yaradılmış, Bakıda bu mərkəzlərin sayı 3-ə çatdırılmışdır. Artıq 2014-cü ilin əvvəlində “ASAN xidmət” mərkəzlərindən istifadə edən vətəndaşların sayı 1 milyona çatmışdır.

2014-cü il mayın 7-də Bakıda sayca dördüncü, dekabr ayında isə ölkədə yeddinci olaraq Sabirabadda “ASAN xidmət” mərkəzinin açılışı olmuşdur. 2015-ci ildə Bərdədə, həmin ilin yayında, iyulun 14-də Azərbaycanda hələlik 5 saylı Bakı “ASAN xidmət” mərkəzi açılmışdır. 2016-cı ildə Masallı və Qəbələ, 2017-ci ildə Quba, 2018-ci ildə isə Mingəçevir, İmişli və Şəki, 2019-cu ildə Şamaxı, 2020-ci ildə Kürdəmir, Tovuz, Ağcabədi və Balakən rayon sakinlərinin də həyatına bu asanlıq daxil olmuş və onlar da digər bölgələrdə olan insanlar kimi vaxt və vəsait itkisinə son qoymuşlar.

2021-ci ildə 6 saylı Bakı “ASAN xidmət” mərkəzi, 2022-ci ildə 2 saylı Gəncə regional “ASAN xidmət” mərkəzi və 7 saylı Bakı “ASAN xidmət” mərkəzi fəaliyyətə başlamış, 2023-cü ildə isə Naxçıvan Muxtar Respublikası və Salyan rayon sakinlərin çoxdankı arzuları reallaşmış və onların da həyatı “ASAN xidmət”lə asanlaşmışdır.

2024-cü il yanvar ayının 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Lənkəran regional “ASAN xidmət” mərkəzi istifadəyə verilib. Bu mərkəz Lənkəran, Astara, Lerik və Yardımlı rayonlarında qeydiyyatda olan təxminən 500 min vətəndaşa xidmət göstərir. Hazırda 27 “ASAN xidmət” mərkəzi mövcuddur. Onlardan 7-si paytaxt Bakıda, digər 18-i isə regional mərkəzlər olmaqla,Sumqayıt, Gəncə, Sabirabad, Bərdə, Qəbələ, Quba, Masallı, Mingəçevir, İmişli, Şəki, Şamaxı, Kürdəmir, Tovuz, Ağcabədi, Balakən, Salyan, Naxçıvan və Lənkərandadır. İşğaldan azad edilmiş ərazilərdə də “ASAN xidmət” mərkəzlərinin yaradılması nəzərdə tutulub. Belə ki, Ağdam, Laçın və Cəbrayıl rayonlarında mərkəzlərin qurulması məqsədəuyğun hesab edilib. Şuşa şəhərində isə “ASAN xidmət” mərkəzinin tikintisi davam etdirilir.

### İldən-ilə artan uğurlar

“ASAN xidmət”in ötən illər ərzində əldə etdiyi uğurlar da az olmamışdır. 2014-cü ildə “ASAN xidmət” İSO 9001:2008 idarəetmə standartı üzrə beynəlxalq sertifikata, həmin ilin yayında səmərəli xidmət nümunəsinə və dövlət-vətəndaş münasibətlərinə verdiyi töhfələrə görə “Uğur 2013” mükafatına, dekabrında isə OHSAS 18001:2007 standartı üzrə beynəlxalq dərəcəli sertifikata, 2015-ci ildə BMT-nin 2015-ci il Dövlət Xidmətləri Mükafatına layiq görülmüşdür. 2015-ci ilin martında Britaniya Əməyin Mühafizəsi Şurası tərəfindən 13 sahə üzrə keçirilən, müxtəlif dövlətlərin 700-dən çox müəssisənin müraciət etdiyi müsabiqənin “Dövlət xidmətlərinin həyata keçirilməsinin təşkilində təhlükəsiz əmək şəraitinin qurulması” sahəsi üzrə qalibi olmuşdur.

ISESCO-nun 2019-2021-ci illər üzrə üçillik fəaliyyət planında üzv ölkələrdə sektoral idarəçilik mexanizminin inkişaf etdirilməsi məqsədilə dövlət idarəçiliyi sahəsində Azərbaycanın “ASAN xidmət” modelindən faydalanmaq tövsiyə olunub. 2023-cü il aprelin 3-də Cenevrədə BMT-nin İnsan Hüquqları Şurasının 52-ci sessiyası çərçivəsində Azərbaycanın təşəbbüsü ilə “Dövlət xidmətlərinin şəffaf, məsuliyyətli və səmərəli çatdırılması vasitəsilə insan hüquqlarının və Davamlı İnkişaf Məqsədlərinin təşviqi” adlı Qətnamə yekdilliklə qəbul edilib. Qətnaməyə 65 dövlət, o cümlədən ABŞ, Çin, Yaponiya, Avropa İttifaqı üzv dövlətləri, Avstraliya, Kanada, eləcə də Afrika, Asiya və Amerika qitələrini təmsil edən ölkələr həmmüəllif qismində qoşulub.

Ənənəvi olaraq Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən və 2023-cü ilin fevral ayında dünyanın 150-dən çox ölkəsinin ekspert, beynəlxalq təşkilat, aidiyyəti qurum rəhbərləri, hökumət və dövlət başçılarının iştirak etdiyi 10 min nəfəri əhatə edən Dünya Hökumət Sammitində Azərbaycan ən yaxşı, ən qabaqcıl dövlət nominasiyası üzrə 80 ölkə arasında birinci yerə çıxıb. Belə ki, Dünya Hökumət Sammiti çərçivəsində “ASAN xidmət” “Qlobal Hökumət Mükəmməlliyi Mükafatı” Proqramı çərçivəsində “Dünyanın Ən Qabaqcıl Dövlət Xidməti” seçilərək xüsusi mükafata layiq görülüb.

### 12 il: operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət, etik davranış, rahatlıq...

Bəli, “ASAN xidmət”dən söz düşəndə insanda yaranan ilkin təəssüratlar bunlardan ibarət olur: operativlik, səffaflıq, nəzakətlilik, məsuliyyət, etik davranış və rahatlıq. Çünki indi həyatımızı asanlaşdıran, vaxt itkisinin qarşısını alan, çox nəzakətlə qarşılanıb, hörmətlə yola salındığımız, sayəsində əlavə vəsait xərcləmədiyimiz “ASAN xidmət”lərdən əvvəl vətəndaşların qarşılaşdıqları bir çox problemlər var idi. Elə “ASAN xidmət”in yaranmasının 12-ci ildönümündə onun uğurlarından, fəaliyyətini vətəndaş məmnunluğu ilə qura bilməsindən, operativliyi və şəffaflığından söhbət açarkən ondan əvvəlki illərdə vətəndaşlarımızın qarşılaşdığı problemləri də xatırlamağın yerinə düşdüyünü düşünərək həmin illərə qayıtmaq istəyirəm. Çünki dünəni unutsaq, bugünkülərin nə dəyərini bilərik, nə də qədrini.

Cəmi 12 il bundan əvvəl vətəndaş hər hansı bir sənədin əldə edilməsi üçün bəzən günlərlə yox, həftələrlə aid təşkilatların qapısında qalmalı olurdu. Gözləmək insanları, necə deyərlər, təngə gətirirdi. Qəbullara düşmək o qədər çətin idi ki, hər hansı sənədlə, xidmətlə bağlı aid məsul şəxslə görüşmək elə bir lotereya biletinin udması kimi şans idi. Yaxşı, görüşdün, axı bu işin həlli deyildi. Hələ ilkin məlumatı alır, istənilən bir sənədin düzəldilməsi, xidmətin həyata keçirilməsi üçün haradan başlamağı öyrənmiş olurdun. Burada işin hələlik bitirdi, başlayırdın digər idarələri, müəssisələri gəzməyə. Vaxt gəlib ay olurdu, lakin məsələn, bir evin, maşının qeydiyyata alınması işini hələ də tamam edə bilmirdin. Çünki uzun bir yolda elə maneələrlə qarşılaşırdın ki, bəzən axıra çatdıra bilmir, həll etmək istədiyin işdən əl götürməli olurdun. Açığını deyək ki, süründürməçiliyin əsasında rüşvətxorluq halları var idi. Hansısa məsul adama məlum vəsait çatdırılmadıqda, hər dəfə müraciətində səni “başından” edir, hər dəfə yeni bəhanələr gətirirdi, təki o məbləği alanadək. İnsanlar da gəlirlərinin səviyyəsindən asılı olmayaraq həmin məbləği tapmalı, bir yerə toplamalı, sonra o işin ardınca getməli idi.

Bütün bu süründürməçilik isə vətəndaşların vaxt itkisinə səbəb olurdu. Məsələn, kəndlərdən rayon mərkəzinə hansısa bir sənəd üçün gələn adam onsuz da yarı gününü itirirdi. Sənədi ala bilməyəndə isə yenidən gəlməli olurdu ki, bu da həm vaxt, həm də vəsait itkisinə səbəb olurdu. Adam bir də kəndə-evinə qayıtmalı, səhəri gün bir də o qədər əziyyət çəkməli, həmin sənədi almaq üçün rayon mərkəzinə getməli, o da ki, düzələ, ya düzəlməyə.

Bax, 12 il əvvəl belə problemlərlə qarşılaşırdı insanlar. Həm müəyyən sənədin rüsumunu dövlətə ödəyirdi, həm də müəyyən olunmuş “rüsumları” ciblərə ödəmək məcburiyyətində qalırdı. Bu rüsumu ödəmək istəmədikdə isə süründürməçiliklə yanaşı, həm də kobudluqla, nəzakətsizliklə qarşılaşırdı.

12 il əvvəl “ASAN xidmət” yaradılanda müəyyən xidmətlər var idi ki, orada cəmləndi, təbii ki, onlar yerli aid orqanlardan alındı. Bu, heç də onların ürəyincə olmadı. Çünki yuxarıda da vurğuladığım kimi, müəyyən etdikləri “rüsumlar” əllərindən çıxarıldı. Burada qazanan vətəndaş oldu. Əslində 12 il əvvəl heç kimin ağlına belə gəlməzdi ki, zaman gələcək, belə bir xidmət fəaliyyətə başlayacaq və oraya müraciət edən kəs bu qədər məmnun qalacaq.

İnsan faktorunu daim dövlət siyasətinin prioriteti hesab edən ölkəmizin başçısı vətəndaşların rifah halının yüksəldilməsi ilə yanaşı, onların rahat yaşaması, heç bir çətinliklə üzləşməməsi, sosial qayğılardan xilas olması yollarını da axtarır və bütün bunların qısa zamanda həlli yollarını tapmağa çalışırdı. Elə “ASAN xidmət”in Azərbaycan brendi kimi tətbiqi dövlətimizin başçısının sosial sahədə həyata keçirdiyi siyasətin uğurlu nəticəsi, insana amilinə verilən dəyərin göstəricisi oldu. Artıq 12 ildir ki, tətbiq olunan və hər il coğrafiyası genişləndirilən “ASAN xidmət”lə vətəndaşların həyatında müsbət dəyişikliklər baş verdi. Dövlət xidmətlərindən istifadədə onların razılığı təmin edildi. Belə ki, vətəndaşlar artıq dövlət xidmətlərindən daha operativ və keyfiyyətli formada istifadə edə bilir və bununla da insanlar arasında dövlət orqanlarına etimad artır. Bu baxımdan “ASAN xidmət”in fəaliyyəti əhali tərəfindən razılıqla qarşılanır.

Ardı Səh. 4

# 12 il: həyatımızı asanlaşdıran "ASAN"

Əvvəli-Səh-3

Mərkəzə müraciət edən vətəndaşların məmnunluğunun 98-100% arasında dəyişməsi buna bir sübutdur. Bu məmnunluq isə operativliklə, şəffaflıqla yanaşı, özündə həm də nəzakətli davranışı, məsuliyyətli yanaşmanı, etik davranışa riayət etməni və ümumilikdə vətəndaşa lazım olan rahatlığı da ehtiva edir. Qeyd edim ki, cari ildə "ASAN xidmət" mərkəzləri vətəndaşlara 350-dən çox müxtəlif xidmət göstərir.

### "ASAN"la sosial həyatımızın asan xəritəsi

"ASAN xidmət" eyni zamanda insanın düşüncəsində "asan xəritə" anlayışını da canlandırır. Həqiqətən də artıq "ASAN"la sosial həyatımızın asan bir xəritəsi yaranmışdır. Ötən 12 ildə bu xəritə öz coğrafiyasını genişləndirərək Bakı şəhərindən rayonlarımızadək şaxələnmiş, illərlə əziyyət çəkən insanlar üçün asan bir ünvana çevrilmişdir. Maraqlısı odur ki, bu ünvan vətəndaşların qeydiyyatı üzrə rayonlaşmır. Bütün ölkə vətəndaşları üçün eynilik təşkil edir.

Əvvəllər Bakıda yaşayan, lakin rayonda qeydiyyatda olan vətəndaşlar şəxsiyyət, sürücülük vəsiqəsini dəyişdirmək, yenidən almaq üçün rayona getmək məcburiyyətində qalırdısa, bunun üçün xeyli miqdarda vəsait xərcləməli-həm dövlət, həm digər "rüsumları" ödəməli olurdusa, təbii ki, bu, bir vətəndaş üçün böyük məbləğdə vəsait itkisi idi. Vəsait itkisi ilə bərabər, həm də vaxt itkisi demək idi. Hər hansı bir idarə, müəssisə və təşkilatda çalışan vətəndaş iş vaxtı rayonlara gedə bilmirdi. Bayram günlərində isə iş olmadığından bu işləri həyata keçirə bilmirdi. Bu isə müəyyən çətinliklər yaradırdı. "ASAN xidmət" modelinin yaradılması ilə bu problemlər, süni əngəllər təbii ki, aradan qaldırıldı.

Həmçinin səyyar şəkildə bölgələrdə "ASAN xidmət"in fəaliyyət göstərməsi də bu problemlərin qarşısını alır. Bu model yaradılmamışdan əvvəl vətəndaşlar sosial müavinətlərini aldıqları zaman problemlərlə rastlaşırdı. Ancaq "ASAN xidmət" və "Asan Səyyar Xidmət"-in təşkili ilə istər Bakı şəhərində, istərsə də regionlarda yaşayan əhalinin problemlərinin həlli asanlaşıb. "ASAN xidmət"in yaratdığı mobil tətbiq vətəndaşların işini daha da asanlaşdırır. Mobil tətbiqin yaradılmasında əsas məqsəd vətəndaşlar üçün çevikliyi təmin etməklə, onların əlavə vaxt itkisinin, məsrəflərinin qarşısını almaqdır. "ASAN xidmət" mobil tətbiq vasitəsi ilə vətəndaş "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzlərində müvafiq xidmət mərkəzini seçə, zəruri sənədlərin siyahısı ilə tanış ola və növbə götürə bilir. Həmçinin seçilmiş xidmət üzrə təqdim olunan mərkəzlərdə növbə sayı və növbənin bitmə vaxtı ilə tanış ola və müvafiq mərkəzi seçə bilir. Eyni zamanda "ASAN xidmət" mobil tətbiqində vətəndaşlar üçün onlayn müraciət və telefon vasitəsi ilə 108 "Çağrı" mərkəzi ilə əlaqə, vətəndaşın dayandığı mövqedən xidmət mərkəzinə xəritə əldə etmək imkanı yaradılıb.

"ASAN xidmət" mərkəzləri xidmətləri vətəndaşlara "vahid pəncərə" prinsipinə əsaslanaraq təklif edilir. Yəni vətəndaşlar eyni bir məkanda müxtəlif dövlət qurumlarının istənilən xidmətlərindən eyni vaxtda yararlana bilirlər. Bu da vətəndaşların fərdi xərclərini azaldır və vaxt itkisini aradan qaldırır. Mərkəzlərin fəaliyyətinin əsas üstünlüklərindən biri də həftənin bütün günlərində vətəndaşlara fasiləsiz xidmət göstərməsidir. Bütün bunlar isə "ASAN"a aid xəritədə birləşir. Bu xəritə isə özündə Azərbaycan vətəndaşlarını birləşdirir. Onlara asan xidmətlər göstərir. Vətəndaş bu xidmətdən necə məmnun qalmaya bilər?..



### "ASAN könüllü"sündən dövlət qulluqçusuna...

Prezident İlham Əliyev demişdir: Azərbaycanda çox müasir, dövlətə, Vətənə bağlı olan gənc nəsil yetişir və "ASAN könüllüləri"nin fəaliyyəti xüsusi əhəmiyyət daşıyır. Çünki onlar bu işlərə könüllü şəkildə qoşulurlar, özləri bu təşəbbüsü göstərirlər və işləri ilə ölkəmizin ümumi inkişafına töhfə verirlər...

Bəli, "ASAN xidmət"in yaradılması ölkəmiz, onun vətəndaşları üçün nə qədər əhəmiyyətli oldusa, "ASAN xidmət"lərdə həyata keçirilən "könüllü fəaliyyət" proqramları da bir o qədər əhəmiyyətli oldu. Hər il yüzlərlə gənc könüllü şəkildə bu mərkəzlərə gəlir, öz iş qabiliyyətlərini və intellekt səviyyələrini gücləndirirlər. Bu, tək intellekti gücləndirmək yox, həm də gələcəkdə dövlət qulluqçusu kimi fəaliyyət göstərməyə hazırlıq deməkdir.

"ASAN xidmət" mərkəzlərində könüllülər bütün xidmət sahələrində növbəli şəkildə fəaliyyət göstərirlər. Bu fəaliyyətləri ilə onlar da təbii ki, vətəndaş məmnunluğunun təmin edilməsinə yardımçı olurlar.

Könüllülər müqavilə əsasında 2 ay müddətində fəaliyyət göstərir, müqavilədə nəzərdə tutulmuş öhdəlikləri 2 ay ərzində həyata keçirən könüllülərə agentliyin rəsmi sertifikat və xasiyyətnaməsi verilir. Könüllü fəaliyyət müddəti ərzində ilk cəlb olunmuş könüllülər vətəndaşların qarşılanması, məlumatlandırılması, anketlərin doldurulması, elektron lövhələrdə işləmə, sıra növbələrinin verilməsi kimi işlərlə məşğul olurlar. Gənclərin könüllü fəaliyyətə marağının artması və könüllü axınının çoxalması bu fəaliyyətin "ASAN xidmət" mərkəzləri ilə yanaşı, agentliyin digər sahələrində tətbiqinə də yol açıb. Belə ki, könüllülər agentliyin sosial innovasiyalar və strateji araşdırmalar, nəzarət və qiymətləndirmə şöbələrinə xidmətə cəlb olunur və bununla da onlar bir çox sahələr üzrə yeni təcrübələrə yiyələnir.

2012-ci ildən bu günədək minlərlə gənc "ASAN könüllüləri"nə çevrilib, onlar nəinki ölkəmizin sosial həyatında, həm də ictimai həyatında fəallıq göstərir. Eyni zamanda "ASAN School"dan keçərək gələcək karyeralarını da qururlar.

"ASAN könüllüləri"nin I Ümumrespublika Forumunda çıxış edən Prezident İlham Əliyev bildirib: "Şadam ki, artıq "ASAN xidmət"in böyük könüllülər dəstəsi vardır. "ASAN xidmət" cəmi iki ilə yaxındır ki, fəaliyyət göstərir. Bu müddət ərzində 2 mindən çox könüllü "ASAN xidmət"də işləmişdir, təcrübə toplamışdır və ümumi işimizə öz töhfəsini vermişdir. Hazırda 500 könüllü bizim mərkəzlərdə çalışır və beləliklə, gözəl bir gənc nəsil yetişir. Gənclərimiz bizim gələcəyimizdir... Əminəm ki, bütün başqa sahələrdə könüllülər institutu Azərbaycanda daha da sürətlə formalaşacaq və ümumiyyətlə, bu, cəmiyyətin niyyətini ifadə edir. Çünki Azərbaycanda hazırda mövcud olan ictimai-siyasi vəziyyət, gözəl ab-hava belə təşəbbüslərin irəli sürülməsinə imkan yaradır..."

Bəli, ötən 12 il vətəndaşlara tək "ASAN" həyat bəxş etməyib, eyni zamanda onların övladlarının da məşğulluğu üçün böyük rol oynayıb. Bu gün ölkəmizdə yüzlərlə gənc könüllülükdən dövlət qulluçusunadək yüksəlib, üstəlik bu qurumda müxtəlif yüksək vəzifələri icra etməkdədir. Bütün "ASAN"çılar ölkədə nüfuz sahibləridir. Çünki bu yeni modelin tətbiqini ürəklə, bacarıqla, insanların məmnunluğunu qazanmaqla həyata keçirirlər.

### "ASAN"ın yeni təşəbbüsləri və uğurlu layihələri

2024-cü ildə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin, "ASAN Könüllüləri" Təşkilatının birgə təşkilatçılığı, "bp" şirkətinin dəstəyi ilə həyata keçirilən "ASAN Akademiya – 2024" layihəsi sentyabr ayının 25-də uğurla başa çatmışdır.

4 ay davam edən layihə müddətində iştirakçılar üçün peşəkar mütəxəssislər tərəfindən insan resurslarının və layihələrin idarə edilməsi, ictimaiyyətlə əlaqələr və marketinq, data analitika, beynəlxalq əlaqələr və diplomatiya, hüquq və innovasiya modulları üzrə xüsusi proqram tədris olunub. Tədris prosesində komanda quruculuğu, liderlik, kommunikasiya və komanda işinin inkişafına yönəlmiş seminarlar, praktiki təlimlər keçirilib.

Əsas məqsədi gənclərin əmək fəaliyyətlərinin artırılması, karyeralarında irəliləmələri üçün təkan verilməsi, onların intellektual potensialının düzgün dəyərləndirilməsi, eləcə də sosial aktivliyi artırmaqla respublikamızda gedən inkişafa töhfə verməyə şərait yaratmaq olan tədbirdə 4 aylıq xüsusi təlim-tədris proqramını başa vuran gənclər diplomlarla təltif ediliblər.

7 dəfə həyata keçirilən bu layihəyə 6500-dən çox müraciət olub, 330 nəfər isə iştirakçı qismində iştirak edib. Ölkəmizin ev sahibliyi etdiyi Birləşmiş Millətlər Təşkilatının (BMT) İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində "ASAN Könüllüləri" Təşkilatının "Könüllülərin ekoloji düşərgəsi" layihəsi də uğurlu layihələrdən biri oldu.

Sosial təşəbbüs Özbəkistan Könüllülər Assosiasiyasının birgə təşkilatçılığı, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə reallaşdırıldı. Layihə çərçivəsində iştirakçılar iqlim dəyişikliyi ilə mübarizə istiqamətində müxtəlif ekoloji həll yolları hazırlayıb və peşəkarlar tərəfindən keçiriləcək təlimlərdə iştirak ediblər. Müzakirə panelləri, ekoloji aksiyalar və ideya yarışmaları ilə zənginləşdirilmiş proqram iki ölkənin mədəni irsini əks etdirən tədbirlərlə davam edib. Düşərgənin ilk iki günü "2024-cü ildə Türk dünyasının gənclər paytaxtı" Lənkəran şəhərində keçirilib.

ASAN könüllüləri ictimaiyyətin diqqətini ekoloji tarazlığın bərpasına, yaşıllıqların qorunmasına və ətraf mühitin qorunmasına yönəltmək məqsədilə müxtəlif tədbirlər icra edirlər. Bu məqsədlə "Yaşıl ASAN" ekoloji proqramı vasitəsilə bu günədək 400 layihə, 100-dən çox ağacəkmə və təmizlik aksiyası həyata keçirilib.

2024-cü il Prezident İlham Əliyev tərəfindən ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan ediləndən sonra bu çərçivəsində görülən işlər ekoloji davamlılıq və yaşıl texnologiyaların xüsusi önəmi nəzərə alınmaqla reallaşdırılır. Həmçinin Azərbaycan 2030-cu ilə qədər hədəflənmiş Sosial-İqtisadi İnkişaf üzrə Milli Prioritetlərin 5-ci prioriteti olan "Təmiz ətraf mühit və yaşıl artım"a da xüsusi önəm verir.

Eyni zamanda "ASAN xidmət" tərəfindən də ölkəmizdə dayanıqlı və yaşıl gələcəyin təmin edilməsi istiqamətində innovativ ekoloji təşəbbüslər həyata keçirilir. Nəzərə alsaq ki, "ASAN xidmət" mərkəzlərində ümumilikdə 19 milyon kilovat-saat elektrik enerjisi istehlak edilir, bu fakt enerji tələbatını dayanıqlı şəkildə qarşılamaq üçün innovativ həllərin tətbiqini zəruri edir.

Qeyd olunanları nəzərə alaraq Dövlət Agentliyi "ASAN xidmət" mərkəzlərində alternativ enerji mənbələrinə keçid" layihəsinə start verdi və bu il noyabr ayının 2-də layihənin təqdimat mərasimi keçirildi.

Layihə çərçivəsində ilkin olaraq 7 saylı Bakı "ASAN xidmət" mərkəzinin damında günəş panelləri quraşdırılıb. Bərpa olunan, məsrəfə qənaət edən və şəbəkəyə töhfə verən günəş panelləri vasitəsilə binanın elektrik ehtiyacları təmin ediləcək. Layihənin yaxın gələcəkdə bütün "ASAN xidmət" mərkəzlərinin inzibati binalarında və dayanacaq yerlərində reallaşdırılması nəzərdə tutulur.

Günəş enerjisindən istifadə və qabaqcıl texnologiyaların tətbiqi "ASAN xidmət" mərkəzlərində karbon dioksid tullantılarını əhəmiyyətli dərəcədə azaldacaq. Bununla da mərkəzlərə gündəlik müraciət edən 40,000-ə yaxın vətəndaş üçün daha təmiz, sağlam bir mühit formalaşdırılacaq. Eyni zamanda layihə Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərinə, "Sərfəli və Təmiz Enerji", "Dayanıqlı Şəhərlər və İcmalar", İqlim Dəyişikliyinə Qarşı Mübarizə"yə töhfə verəcək.

### Dövlət qayğısı-məmnunluğun ifadəsi

2022-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin 10 illiyi (2012-2022)" Azərbaycan Respublikasının yubiley medalının və "ASAN xidmət" ilə səmərəli əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 697-VIQD nömrəli Qanununun tətbiqi haqqında" 27 dekabr 2022-ci il tarixli Fərmanı və "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin bir qrup əməkdaşının təltif edilməsi haqqında" 27 dekabr 2022-ci il tarixli Sərəncamı "ASAN xidmət" İşçilərinin Peşə Bayramı Gününə və ilk "ASAN xidmət" mərkəzinin fəaliyyətə başlamasının 10-cu ildönümünə böyük töhfə idi. Dövlətimizin başçısının imzaladığı bu sənədlər eyni zamanda vətəndaş məmnuniyyətini qazanmış bu quruma və onun əməkdaşlarına məmnunluğun ifadəsi idi. 29 dekabr sizin gününüzdür, əziz "ASAN"çılar. Gününüz mübarək! Ümidvarıq ki, sayənizdə qarşıdakı həyatımız bundan da asan olacaq.

***Mətanət Məmmədova***

# Ermənistan iqtisadiyyatında KƏSKİN AZALMA



***Atıq Ermənistan iqtisadiyyatında tənəzzül olduğu özünü göstərməkdədir. Bu tənəzzül kəskin azalmalar fonunda nəzərdən qaçmır. Hətta rəsmi statistik rəqəmlər belə kəskin azalmanı təsdiq edir. 2024-cü ilin noyabrında Ermənistan iqtisadiyyatının məhz son illərin ən zəif artım tempini nümayiş etdirməsi, xüsusən də cəmi 1,2% artım belə qeyd edilməsi Ermənistan iqtisadiyyatının hazırkı ağır durumda olduğunu büruzə verir.***



### Azalmanın kritik həddə olduğu göz önündədir və şişirdilmiş rəsmi məlumatlar belə tənəzzülün olduğunu göstərir

Sözsüz ki, kəskin azalma xüsusilə ötən ayların "təsirli" göstəriciləri fonunda nəzərə çarpır. Hətta ekspertlərin fikrincə, ilin əvvəlindən kəskin şəkildə azalma ixrac strukturunda xüsusi çəkisi olan qiymətli metalların və daşların təkrar ixracının həcminin əhəmiyyətli dərəcədə azalması ilə əlaqələndirilir. Məsələ burasındadır ki, nə ilə əlaqələndirilməsindən asılı olmayaraq, artıq azalmanın kritik həddə olduğu göz önündədir. Rəsmi məlumatlar şişirdilsə belə, yenə də tənəzzülün olduğunu göstərir.

İşğalçı ölkədəki sənaye artımında ilkin olaraq, boş "köpük" kimi olmasına baxmayaraq, göstərilən və az qala nümayiş belə etdirilən "əlamətlər" də var idi. Amma onların, həmin "əlamətlərin" də formalaşması, sözsüz ki, 2023-cü ilin noyabrında Rusiyanın qiymətli metalları və qiymətli daşlarının təkrar ixracı sxeminin işə salınması ilə ortaya çıxmışdı. Məsələ burasındadır ki, sabun köpüyü timsalında olan nə var idisə, hamısı puça çıxdı və vəziyyətin acınacaqlı olması bəlli oldu. Həmin acınacaqlı vəziyyət 2024-cü ilin mayında Rusiya qızıl ixracı rüsumunu ləğv etdikdən sonra artıq açıq-aydın şəkildə, özü də çılpaqlığı ilə özünü göstərməyə başladı.

### İqtisadiyyatın müxtəlif sektorlar üzrə ziddiyyətli tendensiyaları statistik göstəricilərin yalan, şişirdilmiş olduğunu təsdiqləyir

Ermənistanın Statistika Komitəsinin məlumatları həmin ölkədə iqtisadiyyatın müxtəlif sektorlar üzrə ziddiyyətli tendensiyalarını göstərən məlumatlardır. Qeyd olunduğu kimi, statistik göstəricilərin heç də həqiqətə uyğun olduğunu düşünmək belə mümkün deyil. Bir çox statistik göstəricilərin yalan, şişirdilmiş olduğu hər məqamda özünü biruzə verməkdədir. Tikinti 11,6%, daxili ticarət 11,5%, xidmət sektoru 10,4% artdığı barədə göstəricilər, eləcə də sənayedə 19% əhəmiyyətli azalmanın qeydə alınması da yalan məlumatlardır. Ümumiyyətlə, məlumatların, statistik göstəricilərin özləri də bir-birini təkzib edir və bununla da bizim qeyd etdiklərimiz öz təsdiqini tapır.

Statistik göstəricilər nə qədər şişirdilsə də belə, görünən odur ki, xarici ticarət göstəricilərinin pisləşməsi xüsusilə əhəmiyyətli dərəcədə olub. Ermənistanın Statistika Komitəsinin məlumatları təsdiq edir ki, noyabrda xarici ticarət dövriyyəsi 27,4% azalıb. Daha dəqiq desək, həmin dövriyyənin 1,9 milyard dollar təşkil etməsi azalmanın hansı həddə olduğunu, müvafiq dövr ilə müqaisədə kəskin azalmanı göstərir. Statistik göstəricilərdən bəlli olur ki, ixrac 35% azalaraq 752 milyon dollar, idxal isə 21,4% azalaraq 1,16 milyard dollar olub. Dünya Bankının məlumatına görə, əgər 2024-cü ilin əvvəlində qiymətli və yarımqiymətli daşların və metalların ixracının payı ölkənin ümumi ixracının 75%-ni təşkil edirdisə, sentyabrda bu rəqəm 48,5%-ə düşüb.

### Mövcud durumun, kəskin azalmanın vergi yığımına da mənfi təsir göstərə biləcəyi gözlənilir

Hazırda hayların bir çoxları, daha doğrusu böyük əksəriyyəti, xüsusən də erməni əsilli iqtisadçılar kəskin azalma olduğunun fərqindədirlər. Bu azalmanı açıq-aşkar şəkildə etiraf da edirlər. Məsələn, iqtisadçı Aqasi Tavadyan maraqlı bir fakt ortaya qoyub. "Ötən ilin noyabrından o vaxtkı məmurların bəyanatına əsasən, açıq-aşkar razılaşılırdı ki, reeksportdan əldə olunan gəlirin təxminən 4%-i indi Ermənistanın dövlət büdcəsinə daxil olmalı idi. Təkrar ixrac əməliyyatlarının dayandırılması ilə bu gəlirlər də dayanıb ki, bu da müşahidə olunan azalmanın kəskinliyini qismən də olsa izah edir", deyən iqtisadçı Tavadyan Ermənistan iqtisadiyyatında kəskin azalma ilə bağlı fikirlərini açıq-aşkar şəkildə bildirib.

Ermənistan hakimiyyəti belə iqtisadi tənəzzüllə, həmin ölkənin iqtisadiyyatında kəskin azalma ilə bağlı artıq bəzi məqamları etiraf edib. İşğalçı ölkə hakimiyyəti bu mövcud durumun vergi yığımına mənfi təsir göstərə biləcəyini də gizlətmir. Məsələn, Ermənistanın maliyyə naziri Vahe Hovhannisyan keçirdiyi son mətbuat konfransında artıq 2024-cü ildə yarım milyard dollarlıq vergi kəsirinin olduğunu etiraf etməsi özü belə çox şeydən xəbər verir. Daha dəqiq desək, bundan sonra vergi yığımı ilə bağlı vəziyyətin gözləniləndən də pis olacağı qənaəti ortaya çıxır. Bələki, maliyyə nazirinin sözlərinə görə, göstəricilərin nominal artmasına baxmayaraq, büdcənin icrası nəzərdə tutulan səviyyədən aşağı olub. Bu baxımdan hökumət maliyyə sabitliyi ilə bağlı mümkün problemlərin qarşısını almaq üçün xərcləri cilovlamalı olub. Belə çıxır ki, vergi yığımı ilə bağlı da Ermənistan üçün pozitiv fikir belə bildirmək mümkün deyil.

***İnam Hacıyev***



# YAP Təftiş Komissiyasının iclası keçirilib




Dekabrın 28-də Yeni Azərbaycan Partiyası (YAP) Təftiş Komissiyasının onlayn formatda növbəti iclası keçirilib. YAP Təftiş Komissiyasının sədri, Milli Məclisin deputatı Sevinc Hüseynova iclasın gündəliyi və müzakirəyə çıxarılan məsələlər barədə məlumat verib.

İclasda "YAP Təftiş Komissiyasının 2025-ci ilin I yarımilliyi üzrə iş planı", "YAP Təftiş Komissiyasının 2025-ci il ilin birinci yarımilliyi üzrə YAP yerli təşkilat aparatlarında Auditorlar Palatasının mütəxəssislərinin iştirakı ilə təftişin aparılmasına dair təftiş cədvəli" və cari məsələlər müzakirə olunub. YAP Təftiş Komissiyasının üzvləri gündəlikdə duran məsələlərə münasibət bildiriblər.

# Dünyadakı nəzarətsiz silahlar



**_İlin son günləridir. Adətən belə vaxtlarda ötən ilə nəzər salınır, gələn ilin planlarını qururlar. Bir də hazırda yaşadığımız ilin brendlərini, önəmli hadisələrini saf-çürük edərək nəyin doğru, nəyin yanlış olduğunu özümüzə inandırmağa çalışırıq. 2024-cü il başlanandan bitənə qədər bəşəriyyəti bir məsələ "iynə üstündə" saxladı – nüvə müharibəsi. Bu, təsadüfi deyildi, əvvəlki onilliklərdən fərqli olaraq son illər dünyanın iri dövlətləri ən qaynar nöqtələrdə üz-üzə dayanıblar, dünya savaşının bir addımlığında bir-birinə hərbə-zorba gəlirlər. Hər kəsi bir sual düşündürür, dünya müharibəsi olacaqmı?_**

Dünya ölkələri faktiki olaraq iki cəbhəyə bölünüb. Əgər əvvəlki illərdə iri dövlətlər kiçiklərin savaşına arbitrlik edirdilərsə, bu gün özləri səngərdədir. Bu dad aha qorxuludur. BMT-ni beynəlxalq arbitr kimi görənlər də indi barmaqla sayılır, çünki nüfuzdan salınıb. Qərar və qətnamələrinin də kəsəri yoxdur. İri dövlətlər BMT Təhlükəsizlik Şurasının qərarını gözləmədən iri ölçülü planlarını işə salır, birini taxtdan salır, digərini layiq olmadığı kürsüyə çıxarır. Əgər beynəlxalq təhlükəsizliklə məşğul olan ekspertlərdən "ilin anti-sözü" haqda soruşsalar, "silahlara nəzarət" termini bu nominasiyaya uyğun gələ bilər. Ukrayna ətrafında münaqişə fonunda bu sahədə Qərb ölkələri ilə qarşılıqlı əlaqə, hətta "minimum inam"ın olmaması səbəbindən "keçmişə çevrilib". Bu arada, Rusiya Federasiyasının hakimiyyət orqanları və ABŞ-ın yeni administrasiyası gələn il bu və ya digər şəkildə silahlara nəzarətlə birbaşa əlaqəli olan iki problemli məsələni həll etməli olacaq.

### Siyasi baxımdan qəbuledilməz

Rusiyanın yeni nüvə doktrinasında (rəsmi adı: "Rusiya Federasiyasının nüvə silahının qarşısının alınması sahəsində dövlət siyasətinin əsasları") "silahlara nəzarət" ifadəsi yoxa çıxıb. 2020-ci ilin iyunundan 2024-cü ilin noyabrına qədər qüvvədə olan doktrinanın əvvəlki versiyasında bu termin iki dəfə ortaya çıxdı: silahlara nəzarət müqavilələri Çərçivənin hüquqi bazasının komponentləri və silahlara nəzarət sahəsində beynəlxalq öhdəliklərə uyğunluq kimi qeyd edildi. Nə biri, nə də digəri yenilənmiş sənəddə yoxdur. Rusiya rəsmiləri də bu il bu konsepsiyanı daha az xatırlamağa başlayıblar. Əksər dövlət və ya dövlətə yaxın analitik institutların panel iclaslarının, seminarlarının və dəyirmi masalarının başlıqlarında nadir hallarda qeyd olunurdu. Müxtəlif ölkələr (nüvə silahlarından danışırıqsa, Rusiya Federasiyası və ABŞ, adi silah növlərindən danışırıqsa, Rusiya Federasiyası və Avropa dövlətləri) arasında inkişafın, istehsalın məhdudlaşdırılmasına dair razılaşmanı ifadə edən termin Rusiya ilə Qərb arasında mövcud qarşıdurma şəraitində müəyyən silah növlərinin yerləşdirilməsi keçmişin yadigarına çevrilib.

Ümumiyyətlə, silahlara nəzarət mövzusu keçmişdə qalıb, çünki Qərbin ikili standartlarına görə bu gün minimum etibar səviyyəsinə qayıtmaq mümkün deyil. Etibar olmadan isə qarşılıqlı nəzarətin effektiv mexanizmini yaratmaq mümkün deyil. "Silahsızlaşdırma" haqqında nə deyə bilərik. Anti-Rusiya siyasəti aparan, çox aqressiv hərəkət edən, bu ölkəyə qarşı olan tərəfləri silahla təmin edən dövlətlərlə nüvə tərksilahı sahəsində əməkdaşlıq nəinki əhəmiyyətsiz, həm də siyasi baxımdan qəbuledilməz hala gəlib. 2003-cü ildə Rusiya və bir sıra Avropa dövlətləri tərəfindən imzalanmış çərçivə sazişindən çıxmağa hazırlaşan Rusiya hakimiyyəti ötən il Qərb ölkələri ilə nüvə sazişlərinə yenidən baxılması üçün başladıqları işləri davam etdirir.

2023-cü ildə, xatırlayırıq ki, Moskva Rusiya-Amerika Strateji Hücum Silahları Müqaviləsində (START) iştirakını dayandırıb, Avropada Adi Silahlı Qüvvələr haqqında Müqavilədən (CFE) çıxıb və Hərtərəfli Nüvə Sınaqlarına Qadağa Müqaviləsi (CTBT) ratifikasiyasını geri götürüb. 2022-ci ilin fevralında Rusiya ilə strateji sabitliyə dair başlamış dialoqdan birtərəfli qaydada imtina




edən ABŞ prezidenti Co Bayden administrasiyasının nümayəndələri, əksinə, son bir il yarımdır ki, Moskvanı nüvə silahlarının azaldılması ilə bağlı məsləhətləşmələri bərpa etməyə çağırırlar. ABŞ Çinə də oxşar müraciət edib. Vaşinqton bu mövzuda həm Moskva, həm də Pekin ilə "ilkin şərt olmadan və digər sahələrdə fikir ayrılıqlarından asılı olmayaraq" danışmağa hazır olduğunu bildirib.

Bununla belə, həm Rusiya, həm də Çin ABŞ-ın nüvə məsələlərinin ikitərəfli münasibətlərin bütün kompleksindən ayrılmasını nəzərdə tutan təklifini rədd ediblər. Moskva ABŞ-ın Ukrayna ətrafındakı münaqişədə birbaşa iştirakına görə, Pekin isə Tayvanla bağlı Vaşinqtonla kəskin ziddiyyətlərə görə. Rusiya rəsmilərinin bəyanatlarına əsasən, Moskvada artan inam var ki, yalnız nüvə eskalasiyası təhlükəsi ABŞ və onun Avropalı müttəfiqlərini Rusiyanın son "qırmızı xətlərini" (məsələn, NATO qoşunlarının Ukraynaya göndərilməsi kimi) keçməkdən qoruyur. Nüvə risklərinin minimuma endirilməsi o deməkdir ki, Ukraynanın Qərb tərəfdaşları ən pis ssenaridən qorxmadan Kiyevə əllərində olan bütün ənənəvi vasitələrlə kömək edə bilər, Rusiya hakimiyyəti isə açıq-aydın bununla maraqlanmır.

Əbəs yerə deyil ki, Rusiya Federasiyasının yeni Rusiya nüvə doktrinasında nüvə silahından istifadənin beş variantından dördü qeyri-nüvə hücumuna cavabdır. Təəccüblü deyil ki, bu fonda Moskva Amerika administrasiyasının səlahiyyət müddətini başa vuran ABŞ administrasiyasının nüvə arsenallarının azaldılması üzərində işləməyə davam etmək çağırışında "təhdidləri azaltmaq üçün" yalnız Rusiyanın nüvə potensialını məhdudlaşdırmaq və Ukrayna ətrafındakı qarşıdurmada üstünlüklər əldə etmək cəhdini görüb. Göründüyü kimi, Rusiya hakimiyyəti əmindir ki, ABŞ-ın real niyyətləri dövlət katibi Antoni Blinkenin Rusiyaya "strateji məğlubiyyət" vermək perspektivi və Pentaqonun rəhbəri Lloyd Ostinin "məğlubiyyət"lə bağlı bəyanatları ilə daha uyğundur. "Rusiyanı zəifləmək" lazımdır.

Rusiya prezidenti Vladimir Putin noyabrda Valday Beynəlxalq Diskussiya Klubunun plenar iclasında çıxış edərək bu mövzuda növbəti dəfə danışıb. "Birləşmiş Ştatlar və onun, sözünü desək, peykləri... Rusiyaya strateji məğlubiyyət verməyi qarşısına məqsəd qoyur. Konkret bir ölkənin strateji məğlubiyyətinə nail olmaq nə deməkdir? Rusiya hakimiyyəti, Vladimir Putinin sözlərinə görə, ən böyük nüvə güclərindən birinin nümayəndələri kimi onların xüsusi məsuliyyət daşıdığını başa düşürlər. "Biz bütün bunları başa düşürük və ümumilikdə biz ABŞ ilə strateji sabitlik mövzusunda dialoqa hazırıq. Amma qarşı tərəfin münasibətlərimizin bütün aspektlərini nəzərə alaraq buna vicdanla yanaşması lazımdır", - deyə dövlət başçısı qeyd edib: "Gəlin bu barədə açıq vərəqələrlə, sakit, işgüzar şəkildə, heç bir ikiqat, üçqat, ya da beşlik standartlar olmadan danışaq. Görəcəyik ki, yeni administrasiya öz təkliflərini necə formalaşdıracaq".

### İkinci dövrdən nə gözləməli?

ABŞ-ın yeni administrasiyası hələ yeni formalaşır və ondan, o cümlədən hərbi-nüvə sahəsində nə gözləmək aydın deyil. Bir tərəfdən, yeni seçilmiş prezident Donald Tramp bunu hər cür aydın şəkildə ifadə edir: Ukrayna ətrafındakı münaqişənin həllinə kömək etməyə hazırlaşır, bu isə optimist ssenaridə ABŞ-la razılaşmaların əldə olunması üçün daha əlverişli zəmin yaradar. Digər tərəfdən, Respublikaçının ilk prezidentlik müddəti Rusiyaya silahlara nəzarət və nüvə silahının yayılmaması sahəsində çox az xeyir gətirdi: Birləşmiş Ştatlar Orta Mənzilli Nüvə Qüvvələr Müqaviləsi (INF Müqaviləsi), Açıq Səma Müqaviləsindən (OST) çıxdı və İranın nüvə proqramı üzrə Birgə Hərtərəfli Fəaliyyət Planı (JCPOA) donduruldu. Donald Trampın dövründə Rusiya və ABŞ dörd il ərzində müddəti 2021-ci ilin fevralında başa çatan Yeni START Müqaviləsinin beş il müddətinə uzadılması barədə razılığa gələ bilmədilər, halbuki demokrat Co Baydenin administrasiyası hakimiyyətə gəldikdən sonra bu məsələ bir neçə gün ərzində həll olundu. Bundan əlavə, Donald Trampın dövründə Birləşmiş Ştatlar Rusiyanın narahatlığına səbəb olan bir sıra silahların (o cümlədən, dəniz ballistik raketləri və nüvə silahı ilə təchiz edilmiş dənizdən buraxılan qanadlı raketlər üçün aşağı məhsuldar nüvə başlıqları) inkişafına sərmayə qoymağa başladı və geri qayıtdığını bəyan etdi.

Sonuncu seçki kampaniyası zamanı Donald Trampın bir sıra nüfuzlu həmkarları, ABŞ-ın nüvə potensialının artırılmasını fəal şəkildə müdafiə edirdilər, bəziləri isə hətta tam hüquqlu nüvə sınaqlarının bərpasına çağırırdılar. Bunlardan hansının yeni administrasiya tərəfindən son nəticədə qəbul ediləcəyini mühakimə etmək hələ də çətindir, lakin istənilən halda Moskva və Vaşinqtonun yaxın gələcəkdə hansı məsələlərin üzləşəcəyi artıq bəllidir. Onlardan ikisi 2025-ci ildə bu və ya digər şəkildə həll olunmalıdır.

### Raketlər gözləmir

Birincisi, orta və qısa mənzilli raketlərə aiddir. Vladimir Putin bu yaxınlarda - belaruslu həmkarı Aleksandr Lukaşenkonun müraciətinə cavab olaraq - Rusiyanın ən son "Oreshnik" orta mənzilli ballistik raketlərini Belarus ərazisində yerləşdirməyə hazır olduğunu bəyan edib. Bu, Rusiya prezidentinin açıqlamalarından göründüyü kimi, "ilin ikinci yarısında" həyata keçiriləcək. Bu sistemlərin Belarus ərazisində yerləşdirilməsi Rusiyanın INF müqaviləsinin dağılmasından sonra Moskvanın birtərəfli qaydada elan etdiyi orta və daha qısa mənzilli raketlərin yerləşdirilməsinə moratoriumdan imtina etməsi demək olacaq.

Ötən il Rusiya rəsmiləri dəfələrlə xəbərdarlıq ediblər ki, bu moratorium Birləşmiş Ştatlar əvvəllər INF Müqaviləsinə əsasən qadağan olunmuş sistemləri dünyanın istənilən yerində yerləşdirənə qədər qüvvədə qalacaq. Vladimir Putin dekabrın 16-da Müdafiə Nazirliyinin kollegiyasının genişləndirilmiş iclasında bunu bir daha xatırladıb. Onun sözlərinə görə, ABŞ-ın 5,5 min km-ə qədər atəş məsafəsinə malik yüksək dəqiqlikli yerüstü zərbə silahlarının yaradılması və irəli zonalarda yerləşdirilməsinə hazırlıq üzrə fəaliyyəti Rusiyada narahatlıq doğurur.

Ardı Səh. 7

# Dünyadakı nəzarətsiz silahlar



**Əvvəli-Səh-6**

"Eyni zamanda artıq bu raket sistemlərinin Avropa və Asiya-Sakit okean regionunda köçürülməsi və yerləşdirilməsi üzərində işləyirlər", - Vladimir Putin qeyd edib ki, bu cür tədbirlər əvvəllər qüvvədə olan INF Müqaviləsinə əsasən 2019-cu ilə qədər qadağan edilib. "Biz dəfələrlə bəyan etmişik ki, bu müqavilənin pozulması bütün qlobal təhlükəsizlik üçün mənfi nəticələrə gətirib çıxaracaq, lakin eyni zamanda Amerikanın bu tipli silahları heç bir regionda görünməyənə qədər orta və daha qısa mənzilli raketləri yerləşdirməyəcəyimizi vurğulamışıq. Əslində Rusiya bu öhdəlikləri birtərəfli qaydada öz üzərinə götürdü. Amma, dediyim kimi, əgər ABŞ belə sistemləri yerləşdirməyə başlasa, o zaman bizim bütün könüllü məhdudiyyətlərimiz aradan qaldırılacaq", - deyə o, xəbərdarlıq edib.

ABŞ təlimlər zamanı Filippində yeni "Typhon" orta mənzilli raket sistemlərini yerləşdirib və onların regionun digər ölkələrində yerləşdirilməsini istisna etmir. Bundan əlavə, ABŞ təlimlər zamanı artıq iki dəfə Danimarkanın Bornholm adasına analoji Mk70 raket sistemi çatdırıb. 2026-cı ildən ABŞ Almaniya ərazisində orta və qısa mənzilli yerüstü raketləri (SM-6, Tomaqavk və Qaranlıq Qartal) yerləşdirməyi planlaşdırır.

Moskva və Minskin Belarus ərazisində "Oreşnik" orta mənzilli raket komplekslərinin yerləşdirilməsi qərarı Almaniyada Amerika raketlərinin planlaşdırılan yerləşdirilməsinə cavab olaraq mövqe tutur. ABŞ və Almaniyanın elan etdiyi qrafiki və Vladimir Putinin Belarusa Rusiyanın ən son zərbə sistemlərinin tədarükü perspektivləri ilə bağlı açıqlamalarını nəzərə alsaq, orta və qısa mənzilli raketlər məsələsinin 2025-ci ildə həll olunacağı məlum olur: ya Rusiya və ABŞ bu cür sistemlərin yerləşdirilməsinə məhdudiyyətlər barədə hansısa razılaşma əldə edəcəklər, ya da bu seqmentdə onlar arasında, "Soyuq Müharibə" dövründə olduğu kimi, yenidən silahlanma yarışı başlayacaq. Eyni zamanda, hər iki tərəf qeyri-nüvə raketlərindən danışır, lakin hər iki sistem, lazım gələrsə, nüvə başlıqları ilə təchiz oluna bilər.

Tərəflərin 2025-ci ildə bu və ya digər şəkildə həll etməli olduqları ikinci məsələ müddəti başa çatan Yeni START Müqaviləsinə aiddir. Ukrayna ilə bağlı münaqişə fonunda Rusiya və ABŞ 2023-cü ildə bu əsas müqavilədə iştirakını dayandırdılar, lakin onun kəmiyyət hədlərinə riayət etməyə söz verdilər: yerləşdirilmiş qitələrarası ballistik raketlər (ICBM) üçün 700 ədəd, sualtı qayıqlardan buraxılan ballistik raketlər (SLBM) və ağır bombardmançılar (HBs), onlarda döyüş başlıqları üçün 1550 ədəd, yerləşdirilən və yerləşdirilməmiş buraxılış qurğuları üçün 800 ədəd. ICBM-lər və SLBM-lər, həmçinin vərəm. Moskva və Vaşinqtonun hazırkı vəziyyətdə Yeni START Müqaviləsini əvəz etmək üçün bəzi yeni sazişlər hazırlamaq perspektivləri çətin görünür.

Bir vaxtlar Moskva ilə Vaşinqton arasında münasibətlərin indiki ilə müqayisədə daha az qarşıdurma olmasına baxmayaraq, Donald Trampla hətta sadəcə olaraq bu müqavilənin uzadılması ilə bağlı razılaşmaq mümkün deyildi. Onun nüfuzlu respublikaçı tərəfdarları arasında ABŞ-ın həm Rusiyanı, həm də Çini eyni vaxtda cilovlaya bilməsi üçün nüvə imkanlarını kəskin şəkildə artırmağa başlamalı olduğuna inananlar çoxdur. Üstəlik, Moskva və Vaşinqton nəyisə razılaşdıra bilsələr belə, Rusiyaya düşmən münasibət bəsləyən ABŞ Senatının bunu ratifikasiya etmək şansı faktiki olaraq sıfıra bərabərdir. Belə bir vəziyyətdə tərəflərin START tavanlarına onun müddəti başa çatdıqdan sonra (məsələn, prezidentin bəyanatları şəklində - birgə və ya birtərəfli formada tərtib edilmiş) sadəcə olaraq qarşılıqlı şəkildə riayət etmək istəyi böyük nailiyyət sayıla bilər. Strateji sabitlik sahəsində ikitərəfli gündəm, əlbəttə ki, bu iki məsələ ilə tükənmir. Məsələn, kosmosda və kibermekanda artan qarşıdurma, şübhəsiz ki, problemlər də yaradacaqdır.

Nüvə silahlarının yayılmaması sahəsində də ciddi ziddiyyətlər toplanıb - İranın nüvə proqramı və Şimali Koreya arsenalı ilə bağlı mübahisələrdən tutmuş AUKUS layihəsi ilə bağlı fikir ayrılıqlarına və Amerikanın etibarlılığına şübhə edən bir sıra ABŞ müttəfiqlərinin nüvə ambisiyalarına qədər. Ötən illərin təcrübəsi göstərir ki, bütün bu məsələlərdə Rusiya ilə ABŞ arasında səmərəli qarşılıqlı fəaliyyət mümkündür. Amma indi hər şey Ukrayna ətrafında vəziyyətin necə inkişaf edəcəyindən asılı olacaq. Kim bilir, bəlkə də nəticə müsbət olarsa, "silahlara nəzarət" termini yenidən aktuallaşacaq.

***V.VƏLİYEV***




# NAXÇIVAN MUXTAR RESPUBLİKASI- 100

## *"Naxçıvanın şərəfli tarixi"*

Azərbaycanın dövlətçilik tarixində mühüm yer tutan bir əlamətdar hadisənin ildönümüdür. Belə ki, fevralın 9-da Naxçıvan Muxtar Respublikasının yaradılmasının 100 illiyi tamam olur. Naxçıvanın muxtariyyətinin siyasi tariximizdə çox mühüm hadisə olduğunu nəzərə alaraq, Prezident İlham Əliyev ötən ilin dekabrın 30-da muxtar respublikanın 100 illik yubileyinin geniş qeyd olunması ilə bağlı sərəncam imzalamışdır.

Naxçıvanın xalqımızın istər keçmişində,istərsə də müasir tarixində mühüm yeri olub. Bu ulu diyarda zəngin dövlətçilik tariximizin şərəfli səhifələri yazılıb. Naxçıvan hər zaman xalqımızın ictimai-siyasi, mədəni, elmi həyatına böyük töhfələr verib. Tarixboyu Naxçıvan düşmən qarşısında alınmaz qala olub,yadelli işğalçılara qarşı qətiyyətlə mübarizə aparıb. Prezident İlham Əliyevin sərəncamında deyildiyi kimi,strateji mövqeyi ilə seçilməsi tarixən Naxçıvanı vaxtaşırı gərgin siyasi mübarizələr meydanına çevirsə də, bu diyar qarşılaşdığı bütün sınaqları daim qətiyyətlə dəf etmişdir. Onu da qeyd etməliyik ki, tarixi Azərbaycan torpaqları olan Naxçıvanda muxtariyyətə heç də asanlıqla nail olmayıb."Böyük Ermənistan" xülyasında olan ermənilər bu saxta iddialarını reallaşdırmaq üçün Naxçıvanı hədəf götürmüşlər. Bu məqsədlə erməni quldur dəstələri İrəvan, Zəngəzur və Qarabağla yanaşı, Naxçıvan ərazilərində də azərbaycanlı əhaliyə qarşı məqsədli şəkildə çoxsaylı soyqırımı cinayətləri törətmişlər. Lakin naxçıvanlılar heç vaxt düşmənə təslim olmamış, bu diyar erməni təcavüzündən layiqincə qorunmuşlar.

Azərbaycanda sovet hakimiyyətinin qurulmasından və Zəngəzurun Ermənistana verilməsindən sonra isə Naxçıvanın muxtariyyəti məsələsi gündəmə gəlmişdi. Çünki xüsusən Zəngəzurun Azərbaycandan qoparılıb ermənistana verilməsindən sonra ermənilər Naxçıvanı da ilhaq etmək üçün yeni planlarını işə salmışdılar. Lakin 1921-ci ilin oktyabrında imzalanan Qars müqavilələri erməni məkrini alt-üst etmişdi. Belə ki,bu müqavilələrlə Naxçıvanın muxtariyyət statusu təsbit edilmişdi. 1924-cü il fevralın 9-da Azərbaycan SSR-in tərkibində Naxçıvan Muxtar Respublikası yaradılmışdı. Bununla da Naxçıvan Azərbaycan ərazisi kimi qorunub saxlanılmışdı. Əlbəttə ki,bu mühüm tarixi hadisənin reallaşmasında qardaş Türkiyənin mövqeyi əsas rol oynamışdı.

100 yaşlı Naxçıvanın muxtar respublika kimi tarixini iki yerə bölmək olar;sovet dövrü və müstəqillik dövrü. Və hər iki dövrdə muxtar respublikanın əsas uğurları Heydər Əliyevlə və onun siyasi kursunun davam etdirilməsi ilə bağlıdır. Hələ sovet illərində birbaşa Heydər Əliyevin diqqət və qayğısı ilə Naxçıvan öz intibahının yeni mərhələsinə qədəm qoymuş, muxtar respublikada bütün sahələrin inkişafı vüsət almışdır. "O vaxt Azərbaycanın hər bir yerində olduğu kimi, Naxçıvanda da sürətli inkişaf dövrü müşahidə edilirdi. Ulu Öndərin rəhbərliyi ilə Azərbaycan 1980-ci illərin əvvəllərində sovet məkanında ən qabaqcıl yerlərdə idi, o cümlədən Naxçıvanda da böyük sosial quruculuq işləri aparılırdı. Naxçıvanın potensialı formalaşırdı.Bir sözlə,muxtar respublika öz inkişaf dövrünü yaşayırdı"-deyə Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyində çıxışı zamanı bildirmişdi.

Naxçıvanın dövlətçiliyimizin bütün mərhələlərində xüsusi yeri olub. Müasir tariximizdə isə Naxçıvan xalqımızın müstəqillik uğrunda mübarizəsinə böyük töhvələr verib. Belə ki,1990-cı ildə Ulu Öndər Heydər Əliyevin Naxçıvana qayıdışı, eyni zamanda muxtar respublikanın Ali Məclisinə və Azərbaycan Ali Sovetinə deputat seçilməklə böyük siyasətə qayıdışı o dövrdə respublikamızda yeni baş qaldırmış müstəqillik hərəkatını yeni mərhələyə yüksəltmiş, ona yeni nəfəs vermişdir. Naxçıvanın və Ali Məclisin adında dəyişikliklər edilməklə "sovet" və "sosialist" sözlərindən imtina edilməsi, Azərbaycan Xalq Cümhuriyyəti dövründə ucaldılmış üçrəngli bayrağını ilk dəfə Naxçıvanda rəsmi bayraq kimi təsbit olunması, məhz Naxçıvanda ilk dəfə 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymət verilməsi dövlətçilik tariximizin mühüm hadisələridir. Sovet qoşunlarının Naxçıvandan tam şəkildə çıxarılması da Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bütün bunlarla yanaşı, Heydər Əliyev Naxçıvan Ali Məclisinin sədri çalışdığı dövrdə muxtar respublikanı erməni işğalından layiqincə qorumuşdur.1992-ci ildə "Ümid körpüsü"nün salınması,Yeni Azərbaycan Partiyasının təsis olunması Heydər Əliyevin müəllifliyi ilə dövlətçilik tariximizin yazılan əlamətdar hadisələridir.

Ulu Öndər Heydər Əliyev respublikamıza rəhbərliyi dövründə Naxçıvana diqqət və qayğısının nəticəsi kimi Naxçıvan da böyük inkişaf yolu keçib. Bu illər ərzində muxtar respublikada sosial-iqtisadi sferada əldə olunmuş hər bir nəaliyyət məhz İlham Əliyevin Naxçıvana olan diqqət və qayğısının həyata keçirdiyi iqtisadi islahatların nəticəsidir. "Naxçıvan Muxtar Respublikası bu gün dövlət proqramlarını və infrastruktur lahiyələrini uğurla gerçəkləşdirir, ölkənin iqtisadi qüdrətinin artırılmasında və intellektual potensialının gücləndirilməsində yaxından iştirak edir. Hazırda Naxçıvan beynəlxalq miqyaslı mötəbər tədbirlərin ardıcıl keçirildiyi məkanlardandır. Azərbaycanın ətraf mühitinin mühafizəsinə yönəlmiş fəaliyyət çərçivəsində muxtar respublika "yaşıl enerji zonası" elan olunmuşdur. Naxçıvan Muxtar Respublikası ilə nəqliyyat imkanlarının genişləndirilməsi istiqamətində işlər davam etdirilir-deyə Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında sərəncamında bu barədə deyilir".

Torpaqlarımızın işğaldan azad edilməsindən və ərazi bütövlüyümüzün təmin olunmasından sonra isə Azərbaycan öz yüksəlişinin yeni mərhələsinə qədəm qoydu. Əminik ki, muxtariyyətinin 100 illiyi tamam olan bu mərhələdə Naxçıvan öz sürətli yüksəlişi ilə yeni nümunələr yaradacaq, bütövlükdə respublikamızın inkişafına böyük töhfələr verəcək.

***"Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin Direktoru: R.Rəhimov***

# Avropa Parlamentinin xisləti dəyişmir



Avropa Parlamenti bir neçə gün öncə ölkəmizə qarşı növbəti qərəzli qətnamə qəbul etdi. Qətnamədə adəti üzrə saxta məlumatlara və rəqəmlərə istinad edilib, reallıqlar təhrif olunub, qanunların pozulmasına gətirib çıxarmış cinayət əməllərinin təhqiqatına siyasi don geyindirilməyə cəhd göstərilib. Qətnamənin nə dərəcədə qərəzli olduğunu anlamaq üçün təkcə belə bir faktı qeyd etmək lazımdır ki, ölkəmizin ərazisində insanlıq əleyhinə cinayət törətməkdə təqsirləndirilən keçmiş separatçı rejimin nümayəndələri və terrorçular bu sənəddə "erməni hərbi əsirlər" kimi təqdim olunur. Qərbi Azərbaycan İcmasının Avropa Parlamentinin növbəti qətnaməsi əleyhinə yaydığı bəyanatında deyilib ki, Avropa Parlamenti bu gün qəbul etdiyi qətnamə ilə bir daha Azərbaycana qarşı bitib-tükənməyən nifrətini nümayiş etdirdi. Bəyanatda, həmçinin bildirilib ki, bu, həmin Avropa Parlamentidir ki, biz Qərbi azərbaycanlılar Ermənistan tərəfindən öz dədə-baba yurdlarımızdan deportasiya edilərkən nəinki bunu pisləyib, əksinə, keçmiş "Dağlıq Qarabağ Muxtar Vilayəti"nin Ermənistana birləşdirilməsinə çağırıb: "Budəfəki qətnamədə hərbi canilərə, Xocalı, Qaradağlı, Ağdaban qatillərinə simpatiya ifadə etməsi ilə Avropa Parlamenti zaman dəyişsə də, xislətinin dəyişmədiyini göstərmiş oldu".

Daha sonra Avropa Parlamentinin üzvü Natali Luazo "Armenpress"in müxbiri ilə söhbətində bildirib ki, "Qərbi Azərbaycan" və ya "dəhliz" rəvayətlərinin (?) sülh danışıqlarında yeri olmamalıdır. Onun fikrincə, Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılmasına dair danışıqlarda "Qərbi Azərbaycan" və ya "dəhliz" məsələləri kənara qoyulmalıdır. Ermənipərəst mövqeyi ilə çoxdan tanıdığımız Avroparlamentin deputatı daha sonra ərz edib ki, heç bir ilkin şərt irəli sürülmədən, Ermənistanın suverenliyinə hörmət edən sülh sazişinin müsbət nəticəsi ola bilər. Deputat bildirib ki, Ermənistan və Azərbaycan arasında sabit sülh hər iki ölkənin mənafeyinə uyğun olmalıdır: "Ermənistan və Azərbaycan arasında davamlı sülh hər iki ölkənin ümumi məqsədi olmalıdır. İndiyə qədər Ermənistan xoşməramlılığını və güzəştə getməyə hazır olduğunu nümayiş etdirib. Azərbaycan buna dərhal adekvat şəkildə cavab verməlidir". Bundan başqa, deputat Bakıda həbsdə olan hərbi canilərdən də danışıb, onları "hərbi əsir" adlandırıb. Onun necə deməsindən və düşünməsindən asılı olmayaraq, Bakıda həbsdə olanlar müharibə caniləridir və əlləri Azərbaycan xalqının qanına batmış cinayətkarlardır, onların "hərbi əsir" kimi qələmə verilməsi absurddur.



Qərbi Azərbaycan faktına "qondarma" adı qoymağa çalışan Avroparlamentin deputatı unudur ki, Qərbi Azərbaycan bir reallıqdır, böyük və qədim bir xalqın tarixi ərazisidir, zorla deportasiya olunan Azərbaycan türklərinin doğma yurdudur. Hələ 1988-ci ildə - Ermənistanın azərbaycanlıları kütləvi şəkildə qovduğu vaxt Avropa Parlamenti "Sovet Ermənistanında vəziyyət" adlı qətnamə qəbul edərək, Ermənistanın ərazi iddialarına dəstək ifadə etmiş və bu ölkədə azərbaycanlıların hüquqlarının pozulmasına göz yummuşdur. İlk dövrlərdə bunun Avropa parlamentarilərinin məlumatsızlığı və Ermənistan yönümlü lobbi qurumlarının fəaliyyəti ilə bağlı olduğu güman edilsə də, sonradan məlum oldu ki, Avropa Parlamentində Azərbaycana və azərbaycanlılara qarşı qərəz sistemli xarakter daşıyır və hətta nifrət elementlərini ehtiva edir.

Avropa Parlamenti Azərbaycan və Ermənistan arasında fikir ayrılığı doğuran bütün məsələlərdə Ermənistanın mövqeyini müdafiə etmiş, bəzi hallarda onun tutduğu mövqe Ermənistanın mövqeyində də radikal olmuşdur. Təəssüf ki, Avropa Parlamenti 2024-cü il ərzində də qəbul etdiyi qətnamələrlə öz zərərli ənənəsini davam etdirmişdir. Ermənistanın yoxlanılmış və yoxlanmamış bütün iddialarının hər birinə gen-bol yer verən qətnamə müəlliflərinin yaxın keçmişdə azərbaycanlıların sayca üstünlük təşkil etdiyi indiki Ermənistan ərazisində bir nəfər də olsun azərbaycanlının qalmaması, orada Azərbaycanın mədəni irsinin yer üzündən silinməsi, yer adlarının kütləvi şəkildə dəyişdirilməsi kimi



insanlıq əleyhinə cinayətlərə susmaları açıq-aşkar qərəzdir. Azərbaycan və Ermənistan arasında baş vermiş münaqişənin əsas səbəbinin Ermənistanın ksenofobik və ərazi ekspansiyası siyasəti olduğu, Ermənistanın öz ərazisindən bütün azərbaycanlıları qovması olduğu halda, qətnamələrdə ilkin səbəb barədə uydurma iddialar səsləndirilir. Azərbaycan ərazisində yaşamaqda olan ermənilər üçün beynəlxalq sülhməramlı əməliyyat, beynəlxalq qarantiya mexanizmləri tələb edilən qətnamələrdə, nədənsə eyni tələb Ermənistana qayıtmalı olan azərbaycanlı qaçqınlar üçün irəli sürülmür. Qətnamələrdə Ermənistanın öz ərazisindəki Azərbaycan mədəni irsinin vəziyyətini qiymətləndirmək üçün UNESCO-nun faktaraşdırıcı missiyasını qəbul etməyə guya hazır olması kimi ağ yalan əks etdirilmişdir.

Ermənistana aid qətnamələrin "İnsan hüquqlarına və fundamental azadlıqlarına hörmət" adlı hissəsində bu ölkənin qanuni sakinləri olan və etnik ayrı-seçkilik əsasında qovulmuş azərbaycanlıların hüquqları barədə bir kəlmə də olsun qeyd yoxdur. Etnik təmizləmə yolu ilə monoetnik əraziyə çevrilmiş Ermənistana münasibətdə belə yanaşma onun apardığı ayrı-seçkiliyə açıq-aşkar dəstək deməkdir. Qətnamələrdə eynilə Ermənistan hökuməti kimi, Qərbi Azərbaycan termini ilə bağlı irad bildirilir. Avropa Parlamenti bilməli və unutmamalıdır ki, həmin bölgədə yaxın tarixədək azərbaycanlıların çoxluq təşkil etdiyini və son dövrlərədək qeydə alınmış toponimlərin və hidronimlərin 95 faizindən çoxunun Azərbaycan mənşəli olduğunu nəzərə alaraq, bu ifadəni işlətməyin ciddi əsasları var. Xüsusilə oranın qanuni sakinləri olan azərbaycanlılar etnik təmizləmə yolu ilə öz evlərindən zorla çıxarılıblarsa, o ifadəni işlətmək törədilmiş insanlıq əleyhinə cinayəti rədd etmək baxımından bütün insanlığın borcudur. Bütün bunlar onu söyləməyə əsas verir ki, Avropa Parlamenti üçün əsas məsələ insan hüquqları, beynəlxalq hüquq və Ermənistan ilə Azərbaycan arasında sülh deyil, müəyyən maraqları irəlilətməkdir.

***Sevinc Azadi***

# Yeni il kimin bayramıdır?

***Hər Yeni il bayramı gələndə cəmiyyətdə, mətbuatda, sosial şəbəkələrdə müzakirələr baş alıb gedir. Bəziləri iddia edir ki, bəs bu xristianlıq bayramıdır, bizə yaddır, niyə onu qeyd etməliyik filan. Digərləri belə cavab verir ki, nə olsun xristianlığın bayramıdır, il dəyişir, bütün dünyada qeyd olunur, biz də qeyd etməliyik və təbii ki, haqlıdırlar. İlin dəyişməsi bayram kimi qeyd oluna bilər və burada milli, qeyri-milli nəsə axtarmaq axmaqlıq olardı.***



**Elçin Bayramlı**

Lakin Qış bayramının, Şaxta babanın, Yolka (Yol ağacı) bəzəmək ənənəsinin bizim çox qədim köklərimizdən gəldiyini bilsəydilər, cavabları daha sanballı olardı deyə bu kiçik məqalədə məsələyə bir az aydınlıq gətirməyə çalışacağam.

Qış bayramı haqda qədim hind, Çin, şumer, Misir mədəniyyətlərində məlumatlar var. Şaxta Baba və Yolka (Yol ağacı) ilə bağlı ən qədim məlumatlar 5 min il tarixi olan Şumer mətnlərində var. Eyni dövrə aid hindlilərə məxsus müqəddəs dini-fəlsəfi biliklər toplusu olan Vedalarda da Qış bayramı haqda məlumatlar var.

Türk xalqlarında da bu bayram çox qədim zamanlardan qeyd olunub. İstedadlı qələm dostumuz, araşdırmaçı jurnalist Azərbaycan Yazıçılar Birliyinin və Rusiya Jurnalistlər Birliyinin üzvü Əliş Əvəzin bu haqda maraqlı tədqiqatı var. Araşdırmaçı qədim mənbələrə dayanaraq, yazır ki, qədim türklərin ən böyük bayramı dekabrın 25-nə düşən "Açı" ("acı") suyu" bayramı idi. Bu gün içərisinə açı (xaç) salınmış su ilə yuyunub təmizlənmək çox vacib sayılırdı ki, bu da Ulu Tanrıya (Tanrı xana) biətin ifadəsi idi. (Qeyd etmək lazımdır ki, bərabərtərəfli xaç qədim türk, şumer, misir və hind mədəniyyətlərində əbədiyyəti simvolizə edən müqəddəs işarə idi).

Həmin gün hər kəs evə müqəddəs sayılan, Tanrının əbədilik rəmzi olan şam və ya küknar budağı gətirməli idi. Həmişəyaşıl olması səbəbilə Yolkanın dirilik, əbədilik simvolu kimi müqəddəsləşdirilməsi tarixi isə qədim türklərdə hələ Tanrıçılıq dinindən təxminən 3 min il əvvələ gedib çıxır. Bu ağacın konus formalı olmasından dolayı onu bəzəmək Tanrıya qovuşmaq istəyinin nəticəsidir. Yəni, bunun mahiyyəti Tanrıya gedən yolu bəzəməkdir, ən zirvədəki ulduz isə Yaradanı simvolizə edir.

Bu ənənələr Tanrının daha qədim adı olan Yersu ilə bağlıdır. Yolkanın evə gətirilməsi Yersunun ərməğanı hesab edilirdi. İnama görə, Tanrı Yersunun iqamətgahı yerin təkində və mərkəzində yerləşib. Burada, Dünya Ağacının rəmzi olan nəhəng, müqəddəs yolka (şam) ağacı bitib. Bu ağacın altında onun hamisi sayılan, əyninə uzun xalat geymiş ağ saqqallı bir qoca əyləşib. Bu, Ülgən (Ölgən) Babadır.

Ülgən Baba çox xeyirxah qocadır, ildə bir dəfə qış vaxtı yerin üstünə çıxıb adamlara qonaq gəlir, böyük torbasında uşaqlara hədiyyələr və Yolka gətirir. Uşaqlar və böyüklər həmin yolkanın ətrafında dövrə vuraraq səhərə qədər nəğmə oxuyub şənlənirlər. Yolka o dərəcədə müqəddəs sayılırdı ki, hətta tanrıçılıq dövründə ölən adamların qəbirlərini şam budaqcıqları ilə döşəyirdilər. İndi də bizim qəbiristanlıqlar şam ağacları ilə doludur.

Şam sözünün qədim dilimizdə Tanrının adlarından biri olması da çox şeydən xəbər verir. Azərbaycanda Şamaxı, Şə(a)mkir, Şamlıq kimi toponimlərin də Tanrının şərəfinə verildiyi aydın olur. Şaman sözünün etimologiyasının kökündə də bu dayanır.

Yazımızdan aydın olduğu kimi, xristianlıqdan azı 3 min əvvəl aid olan bu bayram İsa peyğəmbərin doğuluşu və ya təqvim ilinin başlaması ilə bağlı deyil, konkret olaraq qədim mifoloji dini görüşlərimizə dayanır. Miladi Yeni ilini, Qış bayramını Şaxta (Ülgən) Baba və Yolka (Şam) atributları ilə əksər müsəlman xalqlardan fərqli olaraq müsəlman, xristian, buddist inanclı bütün türkdilli xalqların da geniş qeyd etməsi böyük tarixi təbəddülatlar yaşamış qədim sivilizasiyasının gen yaddaşından qaynaqlanır.

Bəzi dinçilər bəşəriyyətin ən qədim bayramı olan Novruz bayramının da əleyhinə çıxırlar. Halbuki, bu zəngin bayram onu qeyd edən xalqın qədim və yüksək mədəniyyətini göstərən əsas faktlardandır.

Unudulmuş bayramlarımızdan biri olan Xvarna yeni eradan bir neçə min əvvəldən Qafqazdan Çinədək ərazilərdə yaşayan xalqlar tərəfindən keçirilərmiş. Qədim insanlar Odun vasitəsilə Yaradana bu nemətlərdən qansız qurbanlar verərək torpaqdan əldə etdikləri nemətlərə görə Ona minnətdarlığını ifadə edərlərmiş. İndiki təqvimlə bu bərəkət və bolluq bayramı oktyabrın 8-ə düşür. Təəssüf ki, belə qədim və gözəl bayramınızı bərpa etmirik.

Zəngin və qədim mədəniyyət elementi olan bayramlar cəmiyyətə böyük planda müsbət enerji verən mərasimlərdir. Alimlərin və psixoloqların rəyinə görə, kütləvi şənliklər və bayramlar cəmiyyətə xeyli pozitiv enerji yükləyir və xeyli müddət bunun təsiri insanların psixologiyasında, davranışında özünü əks etdirir.

Xülasə sözüm ondadır ki, qədimlərdə bizim olan, sonradan başqalarına təhvil verib imtina etdiyimiz mədəniyyət elementlərini onlardan geri almaq əvəzinə öz kökümüzdən çıxarıb yenidən sahiblənmək lazımdır.

# 2025-ci il - “Konstitusiya və Suverenlik İli”

*2024-cü ili başa vurmağa saylı günlər qalıb. Hər il olduğu kimi bu ili də Azərbaycan xalqı böyük qələbə və nailiyyətlərlə başa vurur. Bu il bizim üçün yaddaqalan və uğurlu il kimi tarixiləşdi. Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2024-cü il ”Yaşıl dünya naminə həmrəylik ili” elan edildi. Sərəncam iqlim dəyişmələrinə qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədi daşıyırdı. Azərbaycan beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir. Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri ”Təmiz ətraf mühit və yaşıl artım ölkəsi” kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un Azərbaycanda keçirilməsi əlbəttə ki, ölkəmizə olan daha bir ehtiramın təzahürü olaraq tarixiləşdi. Azərbaycanın dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a 2024-cü ildə ev sahibliyi etməsi Prezident İlham Əliyevin növbəti təntənəli qələbəsi kimi səsləndi.*

Hər il tariximizə uğur salnaməsi yazılır. Xalqımız böyük təntənə ilə Azərbaycanın görkəmli dövlət xadimi, Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyini 2023-cü ildə təntənə ilə qeyd etdi. Ölkə həyatının bütün sahələrini əhatə edən misilsiz xidmətləri ilə adını Azərbaycan dövlətinin tarixinə əbədi olaraq həkk etmiş və xalqın və ölkənin taleyində əvəzsiz rolu olan Ulu Öndər Heydər Əliyev zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, Vətənə olan tükənməz sevgisi ilə Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxaran və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşduran Ulu Öndər Heydər Əliyev xalqın xilaskarı və Azərbaycanın Memarı və Qurucusu olaraq adını əbədiləşdirdi. 2023-cü il ölkəmizdə Azərbaycan Prezident İlham Əliyevin Sərəncamı əsasında ”Heydər Əliyev İli” elan edildi. Qarşılayacağımız 2025–ci il isə Azərbaycan Respublikasında Prezident İlham Əliyevin Sərəncamı ilə ”Konstitusiya və Suverenlik İli” elan edildi.

### MÜASİR DÖVLƏT QURUCULUĞU ÜÇÜN ETİBARLI ZƏMİN

Sərəncama əsasən, konstitusiyamızın bəyan etdiyi niyyətlərdən biri kimi ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğunu, 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq 2025-ci il Azərbaycan Respublikasında ”Konstitusiya və Suverenlik İli” elan edilib. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2025-ci ilin ”Konstitusiya və Suverenlik İli” elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edəcəkdir.

Müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüzillər boyu Azərbaycan xalqının ən böyük arzusu olmuşdur. Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmişdir.

1991-ci il oktyabrın 18-də qəbul edilmiş ”Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktında yeni Konstitusiyanın hazırlanması nəzərdə tutulsa da, 1991–1993-cü illərdə hakimiyyətin yarıtmaz fəaliyyəti cəmiyyət həyatının bütün sahələrində kəskin böhrana, ölkədə anarxiyanın yaranmasına gətirib çıxarmış, dövlət idarəçiliyi mexanizmləri formalaşdırılmamış, qanunçuluğun, vətəndaşların azad, təhlükəsiz yaşamaq hüququnun təmin edilməsi mümkün olmamışdır. Yalnız 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtmış Ümummilli Lider Heydər Əliyevin böyük xilaskarlıq missiyası sayəsində ölkəmizdə cərəyan edən təhlükəli proseslərin qarşısı alındı, ictimai-siyasi sabitlik təmin edildi və müasir dövlət quruculuğu üçün etibarlı zəmin yarandı. Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunmasını, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır.

### XALQIMIZIN SEÇDİYİ GƏLƏCƏK YOLUN İFADƏSİ

Konstitusiyanın qəbulu müstəqil dövlətimizin Ana Qanunu olaraq vətəndaşların azadlığını və təhlükəsizliyinin bərqərar edilməsinə nail oldu. Müstəqil dövlətin ilk konstitusiyası, eyni zamanda, xalqımızın dünyəvi, milli-mənəvi prinsipləri rəhbər tutaraq, seçdiyi gələcək yolun ifadəsi idi. 1996-cı il fevralın 6-da Ulu Öndər Heydər Əliyevin Sərəncamı ilə noyabrın 12-i Azərbaycan Respublikası Konstitusiya Günü elan edildi. Ulu Öndər Heydər Əliyev yeni Konstitusiyanın məramı, qaynaqları, mahiyyətinə aydınlıq gətirərək ölkənin Əsas Qanunu barədə belə deyirdi: ”Konstitusiya birinci növbədə dövlətlə, hakimiyyətlə xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir. Hakimiyyət bölgüsü, ali icra, qanunvericilik, məhkəmə hakimiyyətləri - bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır”.

5 bölmə, 12 fəsil, 158 maddə və keçid müddəalarından ibarət olan konstitusiyanın mühüm özəlliklərindən biri də vətəndaş hüquq və azadlıqlarına geniş yer ayrılması idi. 1996-1997-ci illərdə Azərbaycan insan hüquq və azadlıqlarının, demokratik təsisatların inkişafının təminatı ilə bağlı bir sıra beynəlxalq konvensiyalara qoşuldu. 1998-ci il fevralın 10-da Azərbaycanda ölüm hökmü ləğv edildi. Azərbaycan MDB məkanında və müsəlman dünyasında bu tarixi qərarı qəbul edən ilk dövlət idi. 14 iyul 1998-ci il tarixdə Azərbaycanda konstitusion müstəvinin ən vacib institutlarından biri - Konstitusiya Məhkəməsi fəaliyyətə başladı. 1998-ci il avqustun 6-da Ümummilli Lider Heydər Əliyev konstitusion hüququn təməl prinsiplərindən olan söz azadlığının təminatı ilə bağlı mühüm bir qərara imza atdı. Mətbuat üzərində senzura tamamilə ləğv edildi. 1999-cu il dekabrın 12-də Konstitusiyada təsbit olunmuş keçid müddəalarından daha birinə əməl olundu - ölkədə ilk bələdiyyə seçkiləri keçirildi, yerli özünüidarə institutu fəaliyyətə başladı. Tarixi ardıcıllığa nəzər salsaq görərik ki, bir-birinin ardınca qəbul olunan sənədlər demokratik dəyərlərə əsaslanırdı. 2001-ci ilin yanvarında Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi ilə ölkəmiz bir sıra Konvensiyalara qoşuldu, dövlətin hüquqi sisteminin demokratik dünya standartlara uyğunlaşdırılması davam etdi. 2002-ci ildə İnsan Hüquqları üzrə Müvəkkil - Ombudsman Təsisatı fəaliyyətə başladı. Son 21 ildə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar ölkəmizin tərəqqisinə, inkişafının davamlı xarakter daşımasına, dövlət müstəqilliyinin möhkəmlənməsinə, idarəetmənin təkmilləşdirilməsi və demokratik inkişaf prosesinə töhfələr verir.

### ƏRAZİ BÜTÖVLÜYÜ VƏ SUVERENLİYİMİZ TAM BƏRPA OLUNDU

Konstitusiyanın preambulasında Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması başlıca niyyətlərdən biri kimi bəyan edilmişdir. Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin 30 ilə yaxın işğal altında qalması Azərbaycan Respublikasının suveren hüquqlarının həmin ərazilərdə tətbiqinə imkan verməmişdir. Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi Azərbaycan xalqının milli ideyasının əsas məqsədlərindən birinə çevrilmiş, cəmiyyətimizin bütün resursları bu taleyüklü vəzifənin həllinə yönəldilmişdir.

2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19–20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı




bütün ərazilərdə bərqərar olmuşdur. Azərbaycan Prezident İlham Əliyev çıxışlarının birində bildirmişdir: ”Antiterror əməliyyatı çox uğurla, peşəkarlıqla keçirilmişdir, hərbçilərimiz böyük qəhrəmanlıq göstərmişdilər. Deyirlər ki, əməliyyat 23 saat neçə dəqiqə çəkmişdir, amma əslində, daha qısa müddət ərzində tamamlanmışdır. Biz bütün nəzərdə tutduğumuz mövqelərə çıxdıq, bütün kommunikasiyalara sahib olduq, bütün təpələri götürdük və faktiki olaraq separatçıların təslim olmaları qaçılmaz idi, labüd idi, təslim olmasaydılar məhv olacaqdılar”.

Vurğulayaq ki, Müzəffər Ordumuz Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ermənilərə qarşı qisas əməliyyatları keçirmiş və düşmən layiqli cəzasını aldı. 24 saatdan az davam edən bu əməliyyat ordumuzun şanlı Qələbəsi ilə başa çatdı. Azərbaycanın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələrinin törtöküntülərinə qarşı antiterror tədbirləri nəticəsində düşmənin atəş nöqtələri məhv edildi, mühüm yüksəklikləri işğaldan azad olundu, çoxlu sayda canlı qüvvəsi, silah və texnikası zərərsizləşdirildi. Ağır itkilər verən işğalçılar ağ bayraq qaldıraraq təslim oldular.

### XALQIMIZIN MİLLİ SƏRVƏTİ

Lokal xarakterli antiterror tədbirləri regionda sülhün bərqərar olmasına misilsiz töhfə verdi. Azərbaycanın inamlı qələbəsi bir daha sübut etdi ki, ölkəmizlə ultimatum dilində danışmaq olmaz. Müzəffər Ali Baş Komandan İlham Əliyevin dediyi kimi, Azərbaycan ərazisində separatizmin kökü kəsildi. Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni silahlı dəstələri tərk-silah edilərək ərazilərimizdən çıxarıldı, respublikamızın suverenliyi tam təmin edildi, bütün ölkə ərazisində Konstitusiya quruluşu bərpa olundu. Azərbaycan Ordusunun 19 sentyabr 2023-cü ildə Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri qəhrəmanlıq tariximizdə əbədi qalacaq. Həmişə qürur duyulası səhifə kimi xatırlanacaq. 2023-cü il sentyabrın 20-də Azərbaycan Respublikasının bütün ərazisində qanunun aliliyinin təmin olunduğunu və Azərbaycan Respublikasının dövlət suverenliyinin bərpa edildiyini nəzərə alaraq Azərbaycan Prezidenti İlham Əliyev ”Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında” Sərəncam imzalayıb. Sərəncama əsasən, hər il sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü kimi qeyd ediləcəkdir. Sənəddə qeyd olunduğu kimi, Ermənistan Respublikası 1990-cı illərin əvvəllərindən başlayaraq Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin tələblərini kobud şəkildə pozaraq Azərbaycan Respublikasına qarşı işğalçılıq siyasəti həyata keçirmiş və hərbi gücdən istifadə edərək ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizini işğal etmişdir. Ermənistanda və işğal olunmuş Azərbaycan torpaqlarında azərbaycanlılara qarşı etnik təmizləmə aparılmış, insanlıq əleyhinə cinayətlər və hərbi cinayətlər nəticəsində şəhər və kəndlərimiz viran edilmiş, ölkəmizin təbii resursları talan olunmuş, dövrümüzün ən dəhşətli faciələrindən olan Xocalı soyqırımı törədilmişdir. Ermənistanın yeni işğalçılıq planlarına, növbəti hərbi təcavüz cəhdinə və ardıcıl təxribatlarına cavab olaraq 2020-ci il sentyabrın 27-də başlamış 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan Silahlı Qüvvələri Ermənistan ordusunu darmadağın etmiş və tarixi Zəfər qazanmışdır. Azərbaycan öz torpaqlarını 30 illik işğaldan azad edərək ərazi bütövlüyünün bərpasına və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinə nail olmuşdur. Bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Kimdir pilot?

**_Pilot olmaq əksər insanlar tərəfindən dünyanın ən prestijli peşələrindən biri hesab olunur. Amma Pilot olmaq üçün bir çox sınaq və mərhələlərdən keçmək lazımdır._**



## Bəs, kimdir pilot?

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Qısaca olaraq deyə bilərik ki, pilotlar hava nəqliyyatında çalışan qəhrəman insanlardır. Pilotların ümumi vəzifəsi təyyarələri idarə etməkdir. Sərnişin və yük daşımaları, hərbi və ya şəxsi məqsədlər üçün istifadə olunan təyyarələrə nəzarət etmək üçün pilot lisenziyanız olmalıdır.

Dünyanın ən stresli və çətin peşələrindən biri olan pilot peşəsində sizdən bir çox parametrləri nəzərə alaraq işinizi görməniz istənilir. Pilotların uçuşdan əvvəl, uçuş zamanı və uçuşdan sonra yerinə yetirməli olduğu bəzi öhdəliklər var.

- Marşrut, hava şəraiti və sərnişinlərin təhlükəsizliyi haqqında bütün məlumatlara sahib olmaq.
- Uçuşdan əvvəl qalxacaq yüksəkliyin, izlənəcək marşrutun və yanacaq hesablamalarının hazırlanması.
- Yanacaq səviyyəsinin qənaət və təhlükəsizlik baxımından balanslı saxlanması.
- Təyyarənin bütün təhlükəsizlik sistemlərinin düzgün işləməsini təmin etmək.
- Uçuş zamanı yaranan problemlər və geribildirimlərlə bağlı kabin heyəti ilə müntəzəm əlaqə saxlamaq.
- Uçuşdan əvvəl, uçuş və eniş zamanı hava hərəkətinə nəzarət qrupları ilə əlaqə saxlamaq.
- Təyyarənin performansı, hava şəraitinin uçuşa və hava hərəkətinə təsiri ilə bağlı mütəmadi olaraq zəruri yoxlamalar aparmaq.
- Səfərin sonunda uçuşla bağlı məlumat və problemlərdən ibarət hesabat hazırlamaq.








## Pilot olmaq üçün nə tələb olunur?

Pilot olmaq üçün insanda bir çox keyfiyyətlər tələb olunur. Pilotlardan psixi xüsusiyyətlərlə yanaşı bəzi sağlamlıq bacarıqları da gözlənilir. Pilot olmaq üçün müəyyən bir boy-çəki limitinin altında və ya ondan yuxarı olmalısınız. Eyni zamanda, göz qüsurları və müəyyən dərəcədə əlillik pilot olmanıza mane ola bilər.

- Yüksək səviyyəli məkan şüuru və əl-göz koordinasiyası bacarıqları
- Yaxşı ünsiyyət qurmaq bacarığı
- Komanda işində uğurlu olmaq
- Kabin heyətini və sərnişinləri aydın əmrlərlə idarə edə bilən liderlik keyfiyyətlərinə malik olmaq
- Ən çətin vəziyyətlərdə tez və dəqiq qərar qəbul etmək bacarığı
- Güclü stress altında sakit qalmaq
- Böyük qərarlar qəbul etməkdə yüksək nizam-intizam və özünə inamın olması.

## Peşəkar pilota işində uğur qazandıran amil nədir?

Uğurlu pilot olmaq müəyyən bacarıqların birləşməsini tələb edir. Bu bacarıqlar həmişə riyaziyyat və ya texniki fənlərlə əlaqəli olmamalıdır. Bu işi görmək üçün həm də yaradıcı düşünməyi, stress altında işləməyi və belə böyük bir məsuliyyəti zehni olaraq qəbul etməyi bacarmalısan. Pilotlardan təkcə liderlik keyfiyyətləri tələb olunmur. Onların komandanın bir hissəsi kimi ünsiyyət qurması və yaxşı işləməsi də gözlənilir.

**Peşəkar pilot olmaq üçün sizə lazım olan 10 ən məşhur xüsusiyyət bunlardır:**

## Açıq Ünsiyyət

Aydın ünsiyyət bacarıqları demək olar ki, hər hansı bir işdə faydalı olsa da, pilotlar üçün həqiqətən vacibdir. Əslində, səhv və ya natamam pilot-nəzarətçi əlaqəsi uçuş insidentlərinin və ya qəzalarının təxminən 80 faizinin səbəbidir. Həm uçuş, həm də eniş təhlükəsizliyini təmin etmək üçün radar vektorları, hava, yol hərəkəti haqqında məlumat və ya fövqəladə hallar üzrə məsləhətlər kimi dəqiq ATC təlimatlarının düzgün şəkildə çatdırılması vacibdir. Bundan əlavə, pilotlar arasında kokpitdə ünsiyyət də eyni dərəcədə vacibdir.

## Situasiya məlumatlılığı

Situasiya məlumatlılığı, uçarkən, idarə edərkən və təyyarəyə qulluq edərkən baş verən hər şeyi qiymətləndirmək deməkdir. Pilotlar öz təyyarələrinin mövqeyi, uçuş şəraiti, konfiqurasiya və enerji vəziyyəti və təhlükəsizliyə təsir edə biləcək digər amillərdən əqli olaraq xəbərdar olmağı öyrənməlidirlər. Qeyri-adekvat situasiya məlumatlılığı idarə olunan uçuş təsiri, idarəetmənin itirilməsi, hava məkanının pozulması, hündürlüyün itirilməsi və ya əlverişsiz hava şəraiti ilə nəticələnə bilər.

## Komanda şəklində işləmək bacarığı

Açıq ünsiyyət və komandada işləmək bacarıqları bütövlükdə nəzərdən keçirilməli olsa da, pilotlar üçün "komanda işi" bölməsi o qədər mühüm mövzudur ki, bu siyahıda onun ayrıca qeyd edilməsinə ehtiyac var.

Pilotların və kabin heyətinin komanda kimi yaxşı işləməsi niyə bu qədər vacibdir?

Aviasiya sahəsində aparılan araşdırmalar göstərir ki, qəzaların əhəmiyyətli bir hissəsi ekipaj üzvlərinin komanda şəklində deyil, fərdi şəkildə işləməsi nəticəsində baş verir.

Pilotlar həmişə digər pilotlar, hava hərəkəti dispetçerləri və uçuş bələdçiləri ilə sıx əməkdaşlıq etməlidirlər. Onlar hərəkətləri əlaqələndirməyi və dürüst və açıq rəy bildirməyi bacarmalıdırlar. Komanda daxilində kommunikasiya və qarşılıqlı yoxlama işi həmişə uçuş təhlükəsizliyinə müsbət təsir göstərmiş, hava yolu sənayesini yüksək riskli sənayelərdən ən təhlükəsizə çevirmişdir.

Ardı Səh. 11

ARAŞDIRMA





# Kimdir pilot?





Əvvəli-Səh-10

## Qətiyyətlilik və sürətli düşünmə qabiliyyəti

Vaxt və resursların idarə edilməsi, eləcə də turbulentlik kimi digər aktual amillər pilotlar üçün qərar qəbul etməyi çətinləşdirə bilər. Pilotlar maneələrlə və ya fövqəladə hallarla qarşılaşdıqda, vəziyyəti aradan qaldırmaq üçün riayət etmək üçün xüsusi prosedurları olan yoxlama siyahısından istifadə edirlər. Bununla belə, fövqəladə vəziyyətə nəzarət vərəqəsinin bütün bölmələrində pilotun görməli olduğu bütün tədbirlər aydın şəkildə göstərilmir.

Pilotlar səhv qərarın ölümcül nəticə ilə nəticələnə biləcəyini bilsələr də, hər zaman sakit olmalıdırlar. Pilotlar nəinki ardıcıl olaraq düzgün qərar qəbul edir, həm də qərarlarını tez yerinə yetirməlidirlər. Çox vaxt tək bir həqiqət yoxdur. Kapitan həmin vaxt konkret vəziyyət üçün mümkün olan ən təhlükəsiz qərarları qəbul etməlidir.

## Stres altında sakit qalmaq bacarığı

Həyata keçirmək üçün illərlə təcrübə tələb edəcək sadə qayda: Stres olmayın!

Panikdən qaçmaq üçün biz tez-tez öz şəxsiyyət xüsusiyyətlərimizi dəyişdirməyi və ya bastırmağı seçirik. Panik olduğumuz zaman zehnimiz mühakimələrimizi bulandırır. Rasional qərarlar çətinləşir və nəticədə zəif mühakimə və ya qərarsızlıq pilot kimi fəaliyyətimizə mənfi təsir göstərir. Təlimlərdə pilotlara sakit qalmaq və anomaliya və ya fövqəladə hallarla mübarizə aparmaq üçün öyrədilir. Uçuş təlimi tələbə pilotları təzyiq altında düzgün qərarlar qəbul etmək və tapşırıqları/yoxlama siyahılarını yerinə yetirmək üçün kifayət qədər sakit və inamlı buraxan intensiv təlimdir.

## Özünə inam, münasibət, özünə intizam

Bir çox pilot zamanla utancaq tələbə pilotlardan özünə inamlı təcrübəli pilotlara çevrilir. Buna görə də pilotlar özlərini nəzarətdə saxlamağa çalışmalıdırlar. Bir pilot olaraq, öz qabiliyyətlərinizə arxayın olmalı və qarşılaşa biləcəyiniz mümkün çətinliklərə baxmayaraq, mümkün olan ən təhlükəsiz şəkildə uçmağa tam sadiq olmalısınız.

## Rəhbərlik

Liderlik həm təbii keyfiyyətdir, həm də öyrənilmiş bacarıqlar toplusudur. Pilotlar həm effektiv liderliyin elementlərini, həm də zəif rəhbərliyin nəticələrini başa düşməlidirlər. Liderliyə nail olmaq üçün pilotlar hər zaman düzgün prosedurların mövcud olmasını təmin etmək üçün SOP və CRM-dən istifadə edərək kokpiti effektiv şəkildə idarə etməlidirlər. Səhv riskini minimuma endirmək və yarana biləcək gözlənilməz təhlükələrlə mübarizə aparmaq üçün uçuş zamanı bunlara əməl edilməlidir.

Ticarət uçuşlarında adətən ikidən çox pilot və bir və ya daha çox kabin heyəti olur. Ancaq təyyarələrin yalnız bir lideri ola bilər: kapitan. Buna görə də pilotlar üçün təhlükəsizlik və rola bağlılıq və ehtiras atmosferi yaratmaqla uçuşun tonunu təyin etmələri vacibdir. O, istənilən böhranda cəsarətlə ekipajı uğura aparmalıdır. Daha önəmlisi, liderlik hörmətdən asılıdır. Komanda liderlərinin qərarının onların təhlükəsizlik və uğur şanslarını artırdığını müşahidə etsələr (instinktiv olaraq) əmrlərə hörmət edəcək və onlara əməl edəcəklər. Bu təbii olaraq zamanla olur.

## Texniki məlumatları anlamaq bacarığı

Pilotlar təyyarələrinin necə işlədiyini başa düşməlidirlər. Pilotun yerinə yetirdiyi bir sıra prosedurlar və texniki tapşırıqlar var. Pilotlar bu prosedurları və tapşırıqları yerinə yetirmək üçün səlahiyyətli olmalıdırlar.

Hər uçuşdan əvvəl və sonra təyyarənin ümumi vəziyyətinin yoxlanılması

Uçuş planlarını hava hərəkətinə nəzarətə təqdim etməzdən əvvəl kifayət qədər yanacaq tədarükünün və hava şəraitinin məqbul olmasını təmin etmək.

Təyyarənin sabit və çəki limitinin altında olduğundan əmin olun.

Təyyarənin radio sistemindən istifadə edərək hava hərəkətinin idarə edilməsi ilə əlaqə.

Təyyarənin planlaşdırılmış marşrut üzrə istismarı, o cümlədən qalxma və enmə.

Uçuş zamanı mühərriklərin, yanacaq sərfiyyatının və digər sistemlərin monitorinqi.

Hava hadisələri və fövqəladə hallar kimi dəyişən şərtlər əsasında müvafiq qərarlar qəbul etmək. (məsələn, mühərrik nasazlığı)

Kokpit alətləri və vizual istinadlardan istifadə edərək təyyarənin uçması.

Və enişdən sonra uçuşu və təyyarənin vəziyyətini sənədləşdirən qeydlərin doldurulması.

Riyaziyyat Bilikləri və yaradıcılıq bacarıqlarının birgə mövcudluğu

Pilot sadəcə rəqəmsal düşünən və ya yaradıcı insan ola bilməz. Uçuş hər iki sahədə yaxşı olmağı tələb edir.

Pilotlar təyyarənin ədədi dəyərlərini və hədlərini bilməli və onlar üzərində tez zehni arifmetik hesablamalar apara bilməlidirlər. Amma bu o demək deyil ki, hesablamalar çətindir. Əslində, çox vaxt bu, əsas toplama və çıxmadır. Həqiqətən tələb olunan dəqiqlik və sürətdir.

Riyaziyyatdan başqa, pilotlar prosedurları və yoxlama siyahılarını, onlardan necə düzgün istifadə etməyi və bu siyahılardan nə vaxt çıxmağı bilməlidirlər.

Qaydaları nə vaxt pozacağını bilmək

9-cu maddədə qeyd edildiyi kimi, pilotlar qaydaları nə vaxt pozacaqlarını bilməlidirlər.

Pilotlar tənzimləyicilər və digər orqanlar tərəfindən tənzimlənən ciddi qaydalara malikdirlər.

Bunlardan başqa qaydalar da var, məsələn;

Təyyarə istehsalçısı tərəfindən dərc edilən qaydalar. Bunlar qaydalara əməl edilmədikdə öldürülə biləcək "təkliflər"dir.

Şirkət tərəfindən müəyyən edilmiş qaydalar. Məsələn, müəyyən şirkət siyasəti və prosedurları.

Bütün bu qaydalar uçuş təhlükəsizliyini təşviq etməkdir. Bəs fövqəladə vəziyyətdə nə baş verir?

Müntəzəm olaraq aşağı səviyyələrdə uçan pilotlar körpülər, ağaclar, ötürücü qüllələr, elektrik xətləri və digər təhlükəli maneələrlə üzləşirlər. Qaydalara riayət etmək ideal olsa da, qaydaları pozmaq bəzən daha yaxşı seçim ola bilər. Məsələn, fövqəladə vəziyyət tələb olunduqda pilot ATC rəsmiləşdirilməsinə və ya şirkət protokoluna məhəl qoymadan uçuş təhlükəsizliyini təmin etmək istəyə bilər.

***Ayşən Vəli***



# Yeni il süfrəsində təhlükə saçan qidalar BƏLLİ OLDU

Sağlam qidalanma mütəxəssisi Məhsəti Hüseynovanın SİA-ya müsahibəsini təqdim edirik:




**- Yeni il süfrəsi necə təşkil olunmalıdır?**

- Təbii ki, bayrama hazırlaşmaq dedikdə insanlar bol çeşidli qidaların hazırlanması, süfrənin fərqli nemətlərlə doldurulmasını düşünür. Amma nəzərə almaq lazımdır ki, bizim orqanizmimiz standart çalışma mexanizminə malikdir. Bayramda daha çox yemək qəbul edək, orqanizmimiz bunu normal qəbul edəcək deyə bir şey yoxdur. Ona görə, yaxşı olar ki, əgər biz sağlam olmaq istəyiriksə, mütləq sağlam qidalanmamıza bayram günlərində də diqqət edək. Xüsusilə, xroniki xəstəliyi olan insanlar, şəkərli diabet xəstələri, bir çox xəstəliyi olan insanlarla yanaşı immun sistemi aşağı olan, azyaşlı və yuxarı yaşdakı insanlar daha diqqətli olmalıdır. Çünki dünyada qida zəhərlənməsindən əziyyət çəkən insanların əksəriyyəti bayram günlərində say etibarilə daha çoxluq təşkil edir. Bu da evdə hazırlanan qidaların doğru saxlanılmamasından tutmuş qida qəbulunda miqdarı aşmaqdan qaynaqlanan zəhərlənmələrdir. Yaxşı olar ki, bayramda bir növ ana yemək və bir növ salatın hazırlanmasına diqqət etsinlər. Nəzərə alaq ki, bizdə də bayram günləri ard-arda bir neçə gün olacaq. Bir gündə bütün qidaları hazırlamaq yerinə menyular şəklində hər gün istehlak edəcəkləri qədər təzə qidalar hazırlayıb qəbul etsinlər.

**- Bayram ərəfəsində insanlar istəyirlər ki, bütün qidalardan istifadə etsinlər. Bəzən də olur ki, bütün qidalardan hazırlayırlar, həmin qidaları həftələrlə, soyuducuya qoyub illərlə yeyirlər. Bu, nə dərəcədə düzgündür? Zəhərlənmə ehtimalı varmı?**

- Qidanı bişirərkən istehlak edəcəyimiz qədər bişirib yedikdə bu zaman o sağlam və keyfiyyətli qida ola bilər. Ancaq onu bir sonrakı günlərə saxladıqda, hələ ki düzgün şəkildə saxlanılmırsa, dəfələrlə isidilib sonra dondurulursa, bu zaman qidanın tərkibində bakteriyalar, mikroorqanizmlər sürətlə çoxalır. Nəzərə alaq ki, bir yemək fərqli qida məhsullarından hazırlanır. Ət, tərəvəzlər fərqli tərkibdə olduğu üçün bişirildikdə tez zamanda keyfiyyətini itirir. Həm də qidalılıq dəyəri çox aşağı düşür. Ona görə bu şəkildə qidalardan istifadə edən insanlarda davamlı olaraq həzm problemləri, mədə-bağırsaq sisteminin pozulması, yeməyi qəbul etdikdən sonra bəzən baş ağrısı, bəzən qarın nahiyəsində ağrı, bəzən şişkinlik olur. Bu kimi şikayətlər olduqda düşünmürlər ki, bu, köhnə yeməkdən qaynaqlanan məsələ ola bilər. Yaxşı olar ki, köhnə yeməklərə üstünlük verməsinlər. Hər yeməyin təzə bişirilməsinə, bişirildikdən sonra da doğru şəkildə saxlanılmasına diqqət etsinlər.

- Bayram günlərində ən çox zəhərlənmələr hansı qidalardan olur?

- Ən çox mayonezli salatlardan qaynaqlanan zəhərlənmədir. Çünki mayonezli salatları hazırlayarkən onun hazırlanma prosesindən tutmuş qəbul ediləcəyinə qədər 6 saat ərzində qəbul olunmalıdır. Bəzən deyirik ki, otaq temperaturunda iki saata qədər saxlanıla bilər. Amma bu otaq temperaturu 20-21 dərəcə nəzərdə tutulur. Əgər temperatur yuxarıdırsa, bu, məhsulun tez xarab olmasına gətirib çıxarır. Digər məsələ turşular, konservləşdirilmiş məhsullardır. Hər zaman risk mənbəyidir. Xanımlar konservləşdirilmiş məhsulları evdə hazırlayarkən bəzən sanitar-gigiyenik normalara əməl etmirlər. Rəngi, dadı dəyişmiş məhsulu "heç nə olmaz" deyə qəbul edirlər və zəhərlənmələrə gətirib çıxarır. Əgər qapaqda şişmə varsa, suda



bulanıqlıq varsa, çöküntü varsa, onlardan istifadə etmək olmaz. Mayonez və ketçupun üzərində 6 aydan 1 ilə qədər son istifadə müddəti göstərilsə də, açıldıqdan sonra 3 gün və daha tez müddətdə bitirilməlidir. Soyuducuda saxladıqları halda buna əməl etmirlər. Elə bilirlər ki, daha uzun müddət saxlamaq olar. Bu da zəhərlənməyə səbəb ola bilər.

**- Təcili tibbi yardım gələnə qədər insanlar zəhərləndiklərini hiss etdikdə nələr etməlidirlər?**

- Baxır ki, hansı məhsuldan zəhərlənmədir. Çünki bir çox zəhərlənmələr daha kəskin və ölümlə nəticələnə bilən səbəblərə gətirib çıxarır. Bunlara turşudan və göbələkdən zəhərlənmə aiddir. Mümkün qədər tez zamanda həkimə müraciət etmək lazımdır. Daha çox mayenin verilməsi ilə yanaşı həmin möhtəviyatın qusdurulması həyata keçirilməlidir. Aktivləşdirilmiş kömürü də kiloqrama görə qəbul edirlər ki, amma ən yaxşı üsulu həkimə müraciət etməkdir.

**- Sağlam həyat tərzi keçirmək üçün nələrə diqqət etməliyik?**

- Ümumiyyətlə, sağlam həyat tərzi bir günlük, bir həftəlik, indi dəbdə olan 21 günlük məsələ deyil. İnsan ömür boyu istifadə edəcəyi qidalardan, sevdiyi idman növündən istifadə edərək və bunu davamlı edə biləcəyi şəkildə seçməlidir. Bu, hər bir insanın yaşadığı yerə görə, işinə görə, eləcə də coğrafi mövqeyinə, yaşına, cinsinə görə fərqli olmalıdır. İnsanlar buna müvəqqəti çəki vermək üçün üz tuturlar. Bu şəkildə olmamalıdır. Çünki biz gündəlik fiziki aktivliyi nəzərdə tuturuqsa, bu, gündəlik 30-40 dəqiqəlik yürüyüşlə yanaşı, yüngül, orqanizmə fayda verəcək idman hərəkətləri də olmalıdır. Eyni zamanda qida qəbulunun porsiyaları günlük bəlli olmalıdır ki, bizə nə qədər kalori lazımdır. 20-25 yaşa qədər olan insanlar gündə üç dəfə əsas yemək qəbul edirsə, 25 yaşdan yuxarı insanların iki dəfə əsas yemək qəbul etmələri ən önəmli məsələlərdən biridir. Ancaq bir çox insanlar işləyir, oxuyursa, buna əməl etmir, daha çox axşam saatlarında qida qəbul edirlər. Bu da sağlam həyat tərzinə zidd olan amillərdən biridir. Günlük iş rejiminə, həyat tərzinə uyğun olaraq qəbul edəcəkləri qida saatlarında qidanın yanında olmasını bəlli etməlidir. Çünki qidalanma hər gün davamlı baş verən prosesdir. Hər gün bunu nəzərə almaq üçün planlama etmək lazımdır. Bu artıq vərdişə çevrildikdən sonra heç də çətin olmur.

**- Həmçinin un və çörək istehlakı ilə bağlı tövsiyələriniz də maraqlıdır. Azərbaycanda istehsal olunan zavod çörəkləri keyfiyyətcə qənaətbəxşdirmi?**

- Un, çörək, paxlalılar gün ərzində karbohidrat miqdarını tənzimləyən qidalardır. Gün ərzində də hər bir insan enerjili olması üçün karbohidrata ehtiyac duyur. İnsan karbohidratı un məmulatlarından da, quru meyvələrin, eləcə də meyvələrin tərkibindəki şəkərdən də qəbul edə bilər. Keyfiyyətli və mənşəyi bəlli olan yerdən alınan çörəkdirsə, günün birinci yarısında istifadə etsinlər. Səhər və günorta qəbul olunan un məmulatları daha tez həzm olunur və enerjiyə çevrilir. Amma axşam saatlarında maddələr mübadiləsinin sürəti aşağı düşdüyünə görə, eyni zamanda hərəkətlilik azadlığına görə axşam saatlarında qəbul edilən kaloriyə çevrilir. Hər bir insan fərqli miqdarda qəbul etməlidir. Ümumi götürsək, səhərlər 1-2 dilim şəklində, günorta 1 dilim qəbul etmək, axşam isə qəbul etməmək daha faydalıdır.

***Söylü Ağazadə***

# “Qərb faciəni münasibətlərin korlanması üçün istifadə etməyə çalışır”







“Qərb mediasının və bəzi Qərb rəsmi dairələrinin bütün məsələləri öz məqsədləri üçün manipulyasiya etməsi artıq ənənə halını alıb”. Bu sözləri SİA-ya açıqlamasında deputat Hikmət Babaoğlu deyib. O bildirib ki, biz bilirik ki, bunun Qərbdə özünəməxsus ənənəsi formalaşıb: "Hadisə nə olursa-olsun onu Qərb mediası mənafeyinə uyğunlaşdıraraq dövlətlərarası münasibətlərə, hadisənin baş verdiyi tərəflər arasındakı münasibətlərə bir alət kimi tətbiq edir. Bu münasibətlərin korlanmasına cəhd edir.

Hazırda biz faciədən danışırıq. Azərbaycan təyyarəsinə qarşı tətbiq olunan kənar zərbədən sonra bir faciə yaşanıb. Ancaq bu faciənin məzmunu, mahiyyəti bir kənarda qalır, Qərb faciəni Rusiya-Azərbaycan münasibətlərinin korlanması üçün istifadə etməyə çalışır. Başqa vaxt Azərbaycana qarşı 44 günlük Vətən müharibəsində, 30 illik münaqişə dövründə edilən terrorların, vurulan zərbələrin heç birinə diqqət yetirmədiyi halda birdən-birə təyyarənin vurulması faktının araşdırılması ilə bağlı Azərbaycana yardım təklif edir. Bunun aydınlaşdırılmasında Azərbaycana kömək əlini uzatmağa hazır olduğunu bildirir. Burada yeganə məqsəd hadisəni manipulyasiya edərək Rusiya və Azərbaycan arasında münasibətlərə kölgə salmaqdan ibarətdir. Bu da artıq ifşa olunmuş siyasətdir. Azərbaycan cəmiyyəti də beynəlxalq, ictimai mühit də bunu dərk edir ki, Qərbin bu yanaşması səmimi deyil. Çalışır ki, məhz bu faciədən istifadə edərək hansısa problem yaratsın, ondan sonra da ən çox sevdiyi metoda əl atsın. Problemin həll olunması üçün hakimlik etsin, özünə səlahiyyət qazansın. Regiona müdaxilə üçün özünə yeni alətlər əldə etmiş olsun. Məsələnin mahiyyəti bundan ibarətdir. Ancaq Azərbaycanda hamı bunun fərqindədir. Azərbaycan heç vaxt icazə verməz ki, onun milli maraqları kimlərsə tərəfindən manipulyasiya edilsin”.

***Söylü Ağazadə***

# Dinamik və davamlı sosial siyasət: Yeni dövr, növbəti hədəflər



***Əhalinin sosial rifahının yaxşılaşdırılması Azərbaycanda dövlət siyasətinin əsas prioritetlərindən biridir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl sosial islahatlar və qəbul edilən mühüm qərarlar bu istiqamətdə əldə olunan nailiyyətləri daha da möhkəmləndirir.***



Prezident İlham Əliyevin "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" 23 dekabr 2024-cü il tarixli Sərəncamı sosial siyasətin ardıcıl və vətəndaş yönümlü olduğunu bir daha təsdiqləyir. Yeni Sərəncama əsasən, 2025-ci il yanvarın 1-dən ölkəmizdə minimum aylıq əməkhaqqının məbləği 345 manatdan 16 faiz artımla 400 manata, 2025-ci il fevralın 1-dən əmək pensiyasının minimum məbləği 280 manatdan 14,3 faiz artımla 320 manata çatdırılacaq. Bu artımlarla birgə artıq 2018-ci ilin əvvəlindən minimum aylıq əməkhaqqında 3,1 dəfə, minimum pensiyada 3 dəfəyədək artıma nail olunub. Bu artımlar dövlətin vətəndaşların sosial təminatına xüsusi önəm verdiyini və iqtisadi resursları sosial rifah üçün istifadə etməkdə qətiyyətli olduğunu göstərir.





Yeni sosial islahat paketində müavinət və təqaüdlərin artırılması da yer alıb. Bu, əhalinin geniş təbəqələrinin rifahını yaxşılaşdırmaq məqsədilə həyata keçirilən addımların davamıdır. Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə aylıq tarif (vəzifə) maaşlarının minimum aylıq əməkhaqqının artırılmış yeni məbləğinə uyğunlaşdırılması təmin ediləcək. Bu da həmin sahələr (sosial, elm, təhsil, səhiyyə, mədəniyyət, gənclər, idman, kənd təsərrüfatı, ekologiya, ətraf mühitin mühafizəsi, mənzil-kommunal, nəqliyyat, rabitə, meliorasiya, su təsərrüfatı və s.) üzrə 19 pillədən ibarət Vahid Tarif Cədvəlinin ilk pilləsindəki maaşın 400 manata çatdırılmaqla, digər pillələr üzrə maaşlarda da buna uyğun artımların baş verməsinə imkan yaradacaq. Yeni sosial paket çərçivəsində pensiyaların indeksləşdirilərək artırılması da nəzərdə tutulur ki, bu da ümumilikdə 3 milyon insana yönələn əməkhaqqı, pensiya, müavinət və təqaüdlərin artmasını təmin edəcək. Bunun üçün ayrılan 1,4 milyard manatlıq əlavə vəsait dövlətin sosial sahəyə olan diqqət və qayğısını bir daha təsdiqləyir. Bu islahatlar cəmiyyətin sosial təminatını gücləndirməklə yanaşı, ümumi iqtisadi sabitliyə də müsbət təsir göstərəcək.

Dövlət büdcəsində sosialyönümlü xərclərin ardıcıl və ciddi artımı sosial dövlətin əsas prinsiplərindən biri olaraq diqqəti cəlb edir. 2024-cü ildə 15,5 mlrd. olan bu xərclərin 2025-ci ilin büdcə layihəsində 16,9 mlrd. manat nəzərdə tutulması dövlətin sosial sahəyə ayrılan vəsaitləri artırmağa yönəlmiş iradəsini göstərir. Bu rəqəmlər sosial siyasətin ölkə büdcəsinin prioritet istiqamətlərindən birinə çevrildiyini nümayiş etdirir. Sosialyönümlü xərclərin büdcənin 41 faizini təşkil etməsi sosial rifahın artırılmasının dövlətin əsas məqsədi olduğunu bir daha təsdiqləyir. Bu, ölkə əhalisinin sosial təminatına yönəlmiş ciddi dövlət dəstəyinin göstəricisidir.

Əlilliyi olan şəxslərə yönələn sosial ödənişlər də bu islahatların vacib tərkib hissəsidir. Bu kateqoriyadan olan şəxslərə əlilliyə görə aylıq pensiya, müavinət, təqaüd ödənilir. 2018-2024-cü illərdə ölkədə minimum pensiyada 2,5 dəfə, orta aylıq pensiyada 2,4 dəfə, müavinət və təqaüd ödənişlərində 5 dəfə artım baş verib. Həmçinin əlilliyə görə sosial ödənişlərə ayrılan illik vəsaitdə 2,1 dəfə və ya 1,3 mlrd. manat artım özünü göstərib. Həmin vəsait 2018-ci ildə 1,2 mlrd. manat təşkil edirdisə, hazırda 2,5 mlrd. manata yaxındır. Bu rəqəmlər əlilliyi olan şəxslərin həyat səviyyəsinin yüksəldilməsi məqsədilə nəzərdə tutulmuş tədbirlərin genişləndirildiyini göstərir. Əlilliyi olan şəxslər üçün dövlət büdcəsi hesabına verilən reabilitasiya vasitələrinin sayının 4 dəfəyə yaxın artırılması bu sahədə həyata keçirilən infrastruktur və sosial dəstək proqramlarının effektivliyini artırır. 34-dən 130-a qədər artan reabilitasiya vasitələri əlilliyi olan şəxslərin həyat keyfiyyətinin yaxşılaşdırılması və onların cəmiyyətə inteqrasiyasını təmin etmək məqsədinə xidmət edir.

Özünüməşğulluq proqramı isə xüsusi əhəmiyyət kəsb edir. Çünki bu proqram işsiz və işaxtaran şəxslərə kiçik biznesə başlamaq və öz işlərini qurmaq imkanı yaradır. Dövlət başçısının tapşırığı ilə həyata keçirilən bu proqram işsizlərin iqtisadi müstəqillik əldə etməsinə dəstək verir və sosial rifahı artırır. Hazırda 93 min şəxs özünüməşğulluq proqramına cəlb edilərək müxtəlif sahələrdə fəaliyyətə başlayıb. Bu proqramın növbəti mərhələsində isə 100 mindən çox insanın bu imkanlardan faydalanacağı gözlənilir ki, bu da ölkə iqtisadiyyatı üçün müsbət bir göstəricidir. Özünüməşğulluq proqramı yalnız məşğulluğu artırmaqla qalmır, həm də sahibkarlıq fəaliyyətini təşviq edir və iqtisadi müstəqilliyin formalaşmasına yardımçı olur. Bu addımlar iqtisadi yüksəliş və sosial rifahın artırılmasına yönəlmiş davamlı inkişaf strategiyasının göstəricisidir.

Əhalinin məşğulluğunun təmin edilməsi və özünüməşğulluq proqramları ilə ölkədə iqtisadi müstəqilliyin və sosial rifahın artırılmasına nail olunduğu bir şəraitdə şəhid ailələri və müharibə iştirakçılarına göstərilən dəstək bu siyasətin humanist yönünü əks etdirir. Vətən müharibəsindən sonra Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı icra olunan sosial dəstək paketi çərçivəsində onların mənzil və fərdi evlə təminatı işləri də aparılır. Prezident İlham Əliyevin tapşırığı ilə bu proqram, postmüharibə dövründə 5 dəfə genişlənərək daha çox insanı əhatə etməyə başladı.

Bu sosial dəstək tədbirləri dövlətin hər bir vətəndaşın rifahını təmin etmək məqsədilə həyata keçirdiyi genişmiqyaslı sosial islahatların bir hissəsidir. Bu islahatların tərkibində innovativ yanaşmaları ilə seçilən DOST Konsepsiyası isə vətəndaşlara daha şəffaf, çevik və əlçatan xidmətlər təqdim etməklə sosial siyasətin uğurla reallaşdırılmasında mühüm rol oynayır. 2019-cu ildən etibarən fəaliyyətə başlayan DOST Agentliyi və onun mərkəzləri, vətəndaşlara 160 sosial xidmətin bir pəncərə prinsipi ilə şəffaf və operativ təqdim olunmasına imkan yaradıb. DOST Konsepsiyası, həmçinin beynəlxalq aləmdə yüksək qiymətləndirilərək 60-dan çox mükafata layiq görülüb, o cümlədən 12 "Avropa üçün yaxşı təcrübə mükafatı"na sahib olub.

DOST Konsepsiyasının davamı olaraq dövlət sosial xidmətlərinin elektronlaşdırılması da böyük irəliləyişlər əldə edib. Nazirliyin 160 xidmətindən 145-i artıq rəqəmsal platforma üzərindən təqdim edilir, o cümlədən 30-dan çox e-arayış xidməti və 50-dən çox proaktiv təyinat mexanizmi işləyir. Bu yanaşma vətəndaşların daha sürətli və rahat şəkildə xidmətlərə çıxışına imkan yaradır, dövlətin sosial xidmətlərini daha şəffaf və çevik edir.

Göründüyü kimi, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial islahatlar, dövlətin vətəndaşlara qarşı məsuliyyətini və onların sosial rifahını təmin etməkdəki qətiyyətini bir daha təsdiqləyir. Bu islahatlar həm iqtisadi müstəqilliyi təşviq edir, həm də cəmiyyətin müxtəlif təbəqələrinə yönələn sosial dəstək tədbirlərini gücləndirərək ölkə əhalisinin həyat səviyyəsini yüksəldir.

***Nigar Orucova***

# Qarabağda ekosistem: yenə, yenidən





***Biomüxtəliflik bir ekosistemdə və ya Yer kürəsində rast gəlinən müxtəlif həyat formalarıdır. İnsanların yaşaya bilmələri üçün yaşadıqları mühitin təmiz su və havası, münbit torpaqları, qida maddələri və digər ehtiyaclarını ödəmək üçün istifadə edə biləcəkləri müxtəlif materiallar olmalıdır. Həyat üçün zəruri olan maddələr və şərait, ətraf mühitin və bakteriyaların, göbələklərin, bitkilərin və heyvanların sayəsində təmin edilir. Bütün bu canlılara biomüxtəliflik deyilir.***



## *Qarabağın canlı növləri yenidən təbiətə qaytarılır, fauna və flora dirçəlir*





Bir ekosistemdə biomüxtəliflik artdıqca həmin mühitin ekoloji keyfiyyəti də artır. Bu artım yalnız bioloji müxtəlifliyi təşkil edən növlər arasında balanslaşdırılmış qarşılıqlı əlaqə olduqda etibarlıdır. Buna görə də, biomüxtəliflik artdıqca ekosistemlərdə maddə dövranı və enerji axını daha effektiv olur. Əksinə, bir ekosistemdə biomüxtəliflik azaldıqda, ekosistem xidmətlərində azalma olur. Məsələn, ilan öz ekosistemindəki siçan və qurbağa kimi növlərdən qida olaraq istifadə edir. Beləliklə, siçan və qurbağa populyasiyalarının həddindən artıq artmasının qarşısı alınır. Nəticədə, siçan və qurbağalarla eyni qidanı paylaşan digər heyvanların qida maddələrindən faydalanmasına icazə verilir.

Biomüxtəliflik üzrə Beynəlxalq Müqavilə 1992-ci ildə Braziliyanın Rio-de-Janeyro şəhərində keçirilən Yer Sammitində 150 ölkə tərəfindən imzalanıb. 4 iyul 1993-cü il tarixinədək imzaya açıq saxlanılan müqavilədə iştirak edən ölkələrin sayı bu tarixdən etibarən 168-ə yüksəldi. 29 dekabr 1993-cü ildə Birləşmiş Baş Assambleyada müzakirə edildikdən sonra qüvvəyə mindi. Müqavilə davamlı inkişaf və inkişaf konsepsiyalarına xüsusi diqqət yetirir. Heyvanların, bitkilərin, mikroorqanizmlərin və onların ekosistemlərinin müxtəlifliyindən kənara çıxan saziş insanların qida, təhlükəsizlik, sığınacaq, dərman, sağlam və təmiz ətraf mühitdə yaşamaq hüquqlarını nəzərə alaraq davamlılığı daha geniş perspektivdən nəzərdən keçirir.

Mütəxəssislər vurğulayırlar ki, saziş qüvvəyə mindikdən sonra kifayət qədər irəliləyiş əldə olunmayıb və biomüxtəlifliyin itirilməsi davam edir. Son 50 ildə quruda yaşayan canlı növlərinin populyasiyalarında 38 faiz, dəniz növlərinin populyasiyalarında isə 36 faiz azalma müşahidə olunub. Bununla belə, bu tendensiyanı geri qaytarmaq imkanı var. Növlərin mühafizəsi proqramları ilə birlikdə qorunan ərazilər sürətlə genişləndirilməli və gücləndirilməlidir, təbii ehtiyatlardan istifadə edən bütün sektorlar (enerji, tikinti, istehsal və s.) öz işlərində biomüxtəlifliyi nəzərə almalıdırlar. Məsələn, 1970-ci illərdən bəri həyata keçirilən uğurlu təbiəti mühafizə səyləri ilə Çində pandaların sayı artdı. Aralıq dənizində dəniz tısbağası (Caretta) populyasiyalarının artması və son 20 ildə həyata keçirilən sistematik qoruma tədbirləri sayəsində təbiətlə harmoniyada daha da artması göstərir.

Ermənistanın təxminən 30 il davam etmiş və regionun ekoloji vəziyyətinə ciddi ziyan vurmuş işğalçılıq siyasəti nəticəsində işğal olunmuş ərazilərdə həyata keçirilmiş qeyri-qanuni fəaliyyət və təbii ehtiyatların istismarı ekoloji problemlərə gətirib çıxarıb. Meşələrin qırılması və yandırılması, su ehtiyatlarının çirklənməsi, flora və faunanın məhv edilməsi, regionda yerin təkinin talan edilməsi nəticəsində ekoloji tarazlıq pozulub. Qarabağ müharibəsi zamanı ermənilərin Qarabağ ərazisində basdırdıqları çoxsaylı minalara insanlarla bərabər vəhşi təbiətin nadir növdən olan heyvanları da düşür.

30 ildə Azərbaycanın təbiətinə vurulan ziyan böyük miqyaslıdır. İşğaldan azad olunmuş ərazilərimizdə meşə fondu torpaqlarımız 260 min hektardan çoxdur. İşğala qədərki dövrdə aparılan meşə quruluşu işlərində həmin ərazilərin 216 min hektarının meşə örtüklü ərazi olduğu göstərilir. 2020-ci il 2-ci Qarabağ müharibəsində qazandığımız qələbədən sonra aparılan monitorinqlər və qiymətləndirmələr nəticəsində məlum olub ki, 54 min hektardan çox meşə ərazimiz tamamilə məhv edilib. Azad olunan ərazilərdə 152 təbiət abidəmiz - ağaclarımız var. Bunların əksəriyyətinin yaşı 100 illərlə ölçülən ağaclardır. Onlardan 131-i və ya 80%-i məqsədli olaraq tamamilə məhv edilib. 800-1000 il yaşı olan təbiət abidələrimiz, bərpası mümkün olmayacaq dərəcədə sıradan çıxarılıb, hətta kökləri yandırılıb ki, pöhrə belə verməsinlər.

Yola saldığımız il ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov bildirmişdi ki, Qarabağ və Şərqi Zəngəzurda meşəbərpa işləri həyata keçirilir, meşələrimizə, bölgənin ətraf mühitinə, fauna və florasına dəymiş ziyanlar hesablanır və aradan qaldırılması istiqamətində aramsız tədbirlər görülür. "Qırmızı Kitab"ın 3-cü nəşrində nadir, nəsli kəsilmək təhlükəsində olan 241 fauna (152 onurğalı, 89 onurğasız) və 460 flora növü (423 bitki, 37 göbələk) öz əksini tapıb. Onun sözlərinə görə, birinci nəşrdə kitaba düşən flora növlərinin sayı 140, fauna növlərinin sayı 108 idisə, bu rəqəm ikinci nəşrdə iki dəfədən çox artaraq flora üzrə 300 növ, fauna üzrə isə 223 növ təşkil edib.

Meşəbərpa və biomüxtəlifliyin bərpası ilə bağlı layihələrə çoxdan başlanılıb. Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində 60 hektardan çox sahədə-Zəngilan, Cəbrayıl, Füzuli ərazilərində meşəbərpa layihələri həyata keçirilib, daha 160 hektarda isə 130 mindən çox ağac əkilib. Cəbrayılda Türkiyə ilə birgə layihə çərçivəsində Cəbrayıl Meşə Təlim-Tədris Mərkəzi və ağıllı tingçilik kompleksinin tikintisinə başlanılıb, dostluq meşəsi və ətraf ərazilərdə yaşıllıqlar salınıb.

Nazir müavininin sözlərinə görə, 2024-2026-cı illər ərzində minatəmizləmə işləri başa çatdıqca 1150 hektar ərazidə meşəbərpa işləri aparmaq planlaşdırılıb. Bioloji müxtəlifliyin bərpası, tarixən arealları həmin ərazilər olmuş fauna və flora növlərinin qaytarılması ilə bağlı layihələr var. Artıq Şərqi Zəngəzur və Qarabağ ərazisinə 33 baş ceyran, 5 şahin quşu və 4 baş Şərqi Qafqaz turu buraxılıb.

İşğaldan azad olunmuş ərazilərdə bir neçə ildir ki, biomüxtəliflik komponentlərinin tarixi areallarına qaytarılması işi davam etdirilir. Həssas ekosistemlərin bərpası, o cümlədən flora və fauna növlərinin qorunması üçün əsas fəaliyyətlərdən hesab olunan reintroduksiya layihələri davam etdirilir. İşğal dövründə bioloji müxtəliflik komponentlərinə ciddi ziyan dəymiş Qarabağ bölgəsində də bu layihələrin icrası planlaşdırılır. İşğaldan azad edilmiş ərazilərdə fauna növlərinin-ceyran, bezoar keçisi, dağıstan turu və nəcib maralın, o cümlədən balıq və yırtıcı quş növlərinin öz tarixi віареallarına reintroduksiyası nəzərdə tutulub.

Artıq balıq növlərinin populyasiyasının bərpası üçün işlər görülüb. Son iki ildə işğaldan azad edilmiş ərazilərdəki Bəsitçay, Həkəri və Bərgüşad çaylarının hövzələrinə qızılxallı forel balığının buraxılışı təşkil olunub və bu işlər növbəti dövrlərdə də həyata keçiriləcək. Ceyran fərdlərinin Cəbrayıl və Zəngilan rayonları ərazisinə, əvvəllər məskunlaşdıqları areallarına qaytarılması üçün hazırlıq işlərinə başlanılıb. Ümumilikdə, 293 baş ceyran ölkənin təbii areallarına reintroduksiya edilib və aparılan son sayğı monitorinqlərinin nəticələrinə görə, Azərbaycanda 7000-dən artıq ceyran fərdinin yayılması qeydə alınıb. Xüsusilə zubrların Azərbaycanda tarixi məskunlaşma yerlərinə qaytarılması prosesi aparılır.

Qarabağ və Şərqi Zəngəzurda mina qurbanı olan heyvanlar içərisində nəsli kəsilməkdə olan Beynəlxalq Qırmızı Siyahıda olan növlər də var. Ermənistan Respublikası tərəfindən heyvanlara, vəhşi faunaya qarşı sərgilənən bu cür qəddar münasibət yolverilməzdir. Cənubi Qafqaz kimi biomüxtəliflik cəhətdən zəngin bir regionun nadir təbiət inciləri, heyvanları bu cür rəftara məruz qalmamalıdır. Azad edilmiş ərazilərdə ekoloji fəlakət ürək ağrıdır. 30 illik işğal dövründə ərazidə xeyli sayda meşələrin qırılması və ya yandırılması, torpaq və su hövzələrinin qanunsuz dağ-mədən sənayesi işləri nəticəsində kimyəvi cəhətdən çirkləndirilməsi heyvanlara qarşı da kütləvi qırğındır.

***Lalə Mehralı***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük “Vətən Müharibəsi”ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər,habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması” istiqaməti çərçivəsində hazırlanıb.*

# “Ermənistanla Azərbaycan arasında yeni hərbi münaqişə alovlana bilər”

*Əcnəbi ekspertlər*








***Ermənistanda Azərbaycanın gözlənilən hücumu ilə bağlı yenidən çaxnaşma yaranıb. İlk həyəcan təbili çalan politoloq Alen Gevondyan olub. News.am ilə söhbətində o, “Ermənistan gələn il ərazi itkiləri verəcəyini, bu razılaşmanın çoxdan əldə edildiyini” bildirib. Onun fikrincə, “minimum plan və maksimum plan var”. ”Vəziyyətdən asılı olaraq, Zəngəzur dəhlizi təkcə yol deyil, bütün Sünik ola bilər”,- Gevondyan əlavə edib.***

Bir az sonra Ermənistanın bədnam keçmiş ombudsmanı Arman Tatoyan da ona qoşulub. “Ermənistanın hakim “Vətəndaş Sazişi” partiyası dövlətimizin əsaslarını dağıtmaqla “sülh” gündəmini hakimiyyəti saxlamaq alətinə çevirib. Mövcud olmayan bir məsələ sıfırdan gündəmə çevrildi. Bakıda hakimiyyət saxta “Qərbi Azərbaycan” anlayışından istifadə edərək Azərbaycanın Ermənistanda məskunlaşdırmaq istədiyi 300 min azərbaycanlıya “təhlükəsizlik zəmanəti” tələb edir, o cümlədən üçüncü ölkənin silahlı qüvvələrinin bizim suveren ərazimizə yerləşdirilməsini tələb edir. Görünən odur ki, Azərbaycan Dağlıq Qarabağın blokadasını təmin edən, özünü “ekoloji fəal” kimi təqdim edən xüsusi xidmət orqanlarının agentlərini Ermənistanda yerləşdirməyi planlaşdırır”,- “falçı” Tatoyan bildirib. Birdən-birə nə oldu? Bu mövzu niyə yenidən gündəmə gətirilir? Niyə İrəvanda insanlar hesab edirlər ki, Azərbaycanın Ermənistanın ərazilərini ələ keçirməkdən başqa işi yoxdur? Tanınmış ekspertlər bu sualları Caliber.Az cavablandırıblar. Şərhləri oxucularımıza təqdim edirik.

Rusiyalı politoloq, Xəzər Strateji Araşdırmalar İnstitutunun eksperti Aleksandr Karavayev qeyd edib ki, burada 3 məqam var.

“Bu, bir tərəfdən, Bakının 1980-ci illərin sonlarında Ermənistandan qovulmuş 300 min insanın taleyi ilə bağlı məsələnin öyrənilməsinə başlamaq tələbi qarşısında erməni mövqeyinin zəifliyidir. İrəvan görür ki, Əliyev son illər dünya ictimai rəyi ilə müvafiq iş aparıb, bu problemlə bağlı məlumat verib. Bu mövzu prezidentin münaqişədən sonrakı məsələlərlə bağlı hər müsahibəsində, o cümlədən “Rossiya Seqodnya” agentliyinə verdiyi sonuncu müsahibəsində görünür. Yəni bu, getdikcə Ermənistanla danışıqların gündəliyinə daxil edilmə mövzusuna çevrilir. İrəvan da avropalı müttəfiqlərinin müəyyən türk fobiyası nəzərə alınmaqla gündəmi dəyişməyin bu variantı kifayət qədər işləkdir.

Bu mövzu Ermənistanda təhlükə kimi yozulur və bununla da dünya ictimai rəyinin diqqətinə çatdırılır. Və indiki şəraitdə, Ermənistanın bütün postsovet dövrü ərzində Qərb ictimaiyyətinin rəyi ilə həyata keçirdiyi fəaliyyətlər kontekstində Azərbaycandan gələn bu təhlükəni ortaya buraxmaq onlar üçün kifayət qədər asandır. Və təbii ki, uzun onilliklər ərzində davam edən diaspor işi.



bunu görür”, - deyə tədqiqatçı əmindir.

Ekspert deyir ki, bu, hazırda birgə sülh memorandumunun mətnində bənd olmasa belə, hansısa mərhələdə bu, gündəmin mövzusuna çevriləcək.

“Əslində bu mövzuda vətəndaş diplomatiyasının müəyyən alətinə çevrilmiş Qərbi Azərbaycan icmasının fəaliyyəti şəklində Azərbaycan tərəfindən müəyyən addımlar var.

Erməni tərəfində isə vəziyyət elə cərəyan edir ki, əgər siz bu mövzunu danışıqlar nöqtəsi kimi qəbul etməyə razı deyilsinizsə, o zaman onu öz xeyrinizə çevirməyin yeganə variantı problemi gərginləşdirməyə yönəltməkdir. Azərbaycandan təhlükə kimi. Tarixi kontekst və Ermənistanın

Yəni, prinsipcə, bunun bir çox onilliklər ərzində artıq mövcud olan relslərə çox yaxşı uyğunlaşdığı görünür. Amma burada birbaşa hərbi-siyasi mənfəət də var. Bu mövzu altında, Azərbaycandan gələn təhlükə mövzusu altında bir çox ölkələrlə hərbi-texniki əməkdaşlığı inkişaf etdirmək olar. Burada, əslində, bütün bu nümunələr son 2 ildə ortaya çıxıb. Hindistandan Fransayadək”,- ekspert bildirir.

Onun sözlərinə görə, bu, Ermənistanın xarici siyasətinin hazırkı gündəliyinə yaxşı uyğun gəlir.

“Sonuncu olaraq qeyd etmək lazımdır ki, əgər söhbət diplomatiya dilinə keçiddən gedirsə, bu, tərəflər tərəfindən başqa cür başa düşülür. Azərbaycan tərəfdən bu dil Ermənistandan gələn azərbaycanlıların, mühacirlərin icmasının maraqlarına, yəni vətəndaş cəmiyyətinə müraciət edir. Erməni tərəfdən isə biz görürük ki, bu mövzu münaqişə gündəminə keçir. Bunun nəticəsi, həqiqətən də, gələcəkdə hərbi münaqişəyə çevrilə biləcək çox ciddi ağırlaşma ola bilər.

Yəni, deyək ki, erməni informasiya məkanında baş qaldıran bu qorxu və fobiyaları ümumiləşdirsək, əslində hələ Sovet dövründəki münaqişənin fonunu nəzərə alsaq, tamamilə mümkündür. Azərbaycanlıların Ermənistanın hazırkı konstitusion ərazisinə qayıtması ortamüddətli perspektivdə hətta hərbi münaqişə ilə nəticələnə bilər. Yəni bunun siyasi müzakirə predmetinə çevriləcəyi artıq göz qabağındadır- bir neçə addım qalıb. Amma bildiyimiz kimi, belə bir siyasi pərçim həm də Ermənistanın sadəcə olaraq təxribata çəkə biləcəyi hərbi əməliyyatlarla nəticələnə bilər. Amma Azərbaycan silahlı qüvvələri onları da qətiyyətlə yatıra bilər. Yəni, bu keçid işğal olunmuş ərazilərin qaytarılması ilə bağlı danışıqların dalana dirəndiyi 2020-ci ilə qədər və bunun hərbi yolla həllinə qədər olduğu kimi uzana bilməz. Son danışıqlar raundları onilliklər boyu davam etmişdi”,- deyə Karavaev xatırladıb.

Siyasi şərhçi Murad Sadəddinov qeyd edib ki, onun fikrincə, bu, sülh müqaviləsinin imzalanması perspektivlərinin yaranması ilə bağlıdır, çünki Ermənistan və Azərbaycan tərəfləri sülh müqaviləsinin mətninin böyük ölçüdə razılaşdırıldığı barədə məlumat səsləndiriblər.

“Yəni, 17 bənddən 15-i razılaşdırılıb, Ermənistan tərəfinin yerinə yetirməli olduğu iki məqam qalıb. Və onlar əsasən konstitusiya dəyişiklikləri ilə bağlıdır. Bunun üçün isə hakim partiya öz əhalisinə müraciət edib referendum keçirməyə məcbur olacaq. Müəyyən müxalifət qüvvələri anlayır ki, sülh müqaviləsi bağlanarsa, o zaman onların hakimiyyətə gəlmək və Paşinyanı devirmək şansları sıfıra bərabərdir.

Ona görə də müxtəlif siyasi saxtakarlıqlar uyduracaqlar, nağıllar yaradıb xalqı qorxudacaqlar, Paşinyanı azərbaycanpərəst, türkiyəpərəst mövqedə ittiham edəcəklər, guya Ermənistanın milli maraqlarını satmaqda ittiham edəcəklər və s. Sadəcə olaraq, sülh müqaviləsinin imzalanmasını hər hansı vasitə ilə pozmaq üçün. Sülh müqaviləsinin imzalanması təbii ki, Paşinyanın Ermənistan daxilində nüfuzunu yüksəldəcək və gələcəkdə müxalifət qüvvələrinin onu devirməsi mümkün olmayacaq.

Baxmayaraq ki, bu gün onların heç bir perspektivi yoxdur, lakin sülh müqaviləsi imzalanandan sonra Azərbaycan və Türkiyə ilə münasibətlərin bərpası, sərhədlərin və kommunikasiyaların açılması, bütün bunlar Paşinyan üçün bir divident olacaq. Ona görə də istənilən növ bu cür hərəkətlər məhz sülh müqaviləsinin imzalanmasını pozmağa, hazırda sülh müqaviləsinin mətni üzrə yekun razılaşmaya mane olan məsələlərin həllinə qarşı yönəlib. Hesab edirəm ki, bu, məhz bununla bağlıdır”, - Sadəddinov bildirib.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
29 dekabr
2024-cü il

# “TikTok” istifadəçiləri niyə ard-arda həbs olunur?




**“*Əlbəttə, həbslər xoş bir şey deyil. Adam arzu etmir ki, özəlliklə də bayram ərəfəsində kimsə həbs olunsun. Amma bəzi adamlar özlərini qanunun üstündə hesab edirlər və ona görə dövlət məcburiyyət qarşısında qalıb bu adamlarla qanun dilində danışmalı olur”. Bu sözləri SİA-ya açıqlamasında media eksperti Azər Həsrət bir sıra TikTok” istifadəçilərinin həbs olunması barədə danışarkən deyib.***

Onun sözlərinə görə, Azərbaycanda bu qədər maarifləndirmə işləri aparılır, çağırışlar edilir, sosial mediadan istifadənin qayda-qanunları haqqında danışılır, sosial mediadan istifadə edib cəmiyyətdə çaşqınlıq yaratmaq, milli əxlaqa zidd davranışları təbliğ etmək olmaz deyə nə qədər fikirlər səsləndirilir: ”Hətta çəkindirmək üçün yumuşaq təsir imkanlarından istifadə edilir. Yəni, sərt tədbirlərə əl atılmır. Amma buna baxmayaraq bəzi adamlar islah olmur. Bu gün həbs edilən adamlar məhz islah olunmayan adamlardır. Yəni onlar normal çağırışlara, maarifləndirməyə boyun əymək istəməyən, cəmiyyətin əxlaqı ilə tərs düşən fəaliyyətlərə məsulkiyyətsizcəsinə üstünlük verən adamlardır. Ona görə də həbs edilirlər. Yoxsa Azərbaycanda sosial media istifadəçilərinə qarşı hər hansı bir problem yoxdur. Nə dövlət o işə qarışır, nə də ümumiyyətlə kimsə kiminsə işinə qarışır.

Normal qanun çərçivəsində məsuliyyətlə sosial mediadan, o cümlədən ”TikTok”dan istifadə edən heçkimin heç bir problemi yoxdur, ola da bilməz. Sadəcə olaraq qanun çərçivəsindən kənara çıxanlara dövlət məcburiyyət qarşısında nəyisə qanun dili ilə xatırlatmaq məcburiyyətində qalır. Bax, bu saat baş verən o hadisələrdir”.



**EKSPERT DANIŞDI**

***Ayşən Vəli***

“SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

*Azərbaycanda dekabrın 29-da hava şəraitinin yağıntılı keçəcəyi gözlənilir. SİA xəbər verir ki, bu barədə Milli Hidrometeorologiya Xidməti məlumat yayıb. Qeyd edilib ki, sabah Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə fasilələrlə yağış yağacağı gözlənilir. Gündüz tədricən kəsiləcək.*



# Bu gün bəzi yerlərə yağış və qar yağacaq – XƏBƏRDARLIQ

Mülayim şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 4-6° isti, gündüz 6-8° isti olacaq. Atmosfer təzyiqi 762 mm civə sütunundan 768 mm civə sütununa yüksələcək. Nisbi rütubət 70-80 % olacaq.

Azərbaycanın rayonlarında havanın bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq rayonlarda qar yağacağı gözlənilir. Gündüz qərb rayonlarında yağıntılar kəsiləcək. Bəzi yerlərdə arabir duman. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 1-6° isti, gündüz 6-11° isti, dağlarda gecə 2-6° şaxta, gündüz 2°şaxtadan 3°-dək isti olacaq.

# Xaricdə təhsil kvotası açıqlandı

***“Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2028-ci illər üçün Dövlət Proqramı”na daxil edilən doktorantura səviyyəsi üzrə kvota sayı 500 nəfər müəyyənləşib. SİA xəbər verir ki, bu barədə Elm və Təhsil Nazirliyinin ilin yekunları ilə bağlı yaydığı məlumatda qeyd olunub.***

Qeyd edilib ki, proqram çərçivəsində gələn ildən başlayaraq kvotanın 25 faizindən çox olmayan hissəsi bakalavriat səviyyəsini və 20 faizindən çox olmayan hissəsi doktorantura səviyyəsini əhatə edəcək.

Xatırladaq ki, “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2028-ci illər üçün Dövlət Proqramı”nın müddəti uzadılaraq 2022-2028-ci illər olaraq müəyyən edilib.



*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 2700**